www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 avqust 2024-cü il Cümə № 145 (8518) Qiymətі 60 qəpik

### Xəbər

**Quru sərhədlərin açılacağı ilə bağlı yeni tarix**

yazısı səh.4-də

### Gündəm

**Sülh sazişinə "ölü qrup" əngəli**



Bakı sülh danışıqlarında ATƏT-in girovа dönmüş missiyasının ləğvini tələb edir, Ermənistan isə...

yazısı səh.8-də

**Qərb nəşrindən iddia - Rusiya Bakını niyə raketlə vursun?**

yazısı səh.5-də

**Daha dörd şəhid dəfn edildi**

yazısı səh.5-də

**Bakıda yayılan xəstəliyin səbəbi bilindi**

yazısı səh.2-də

**Seçkilərdə "xəsis namizədlər" və təşviqatla bağlı "ayıb iş..."**

yazısı səh.10-da

**Yeni vitse-spikerlərdən biri qadın olacaq?**

yazısı səh.10-da

**Bölgəmiz yeni müharibəyə sürüklənir**

yazısı səh.11-də

**Benzinin qiyməti ilə bağlı yeni iddia**

yazısı səh.13-də

**Parisdə bayrağımızı qaldıranlara verilən yüksək qiymət**

yazısı səh.12-də

**Manatın 32 "yaşı" oldu**

yazısı səh.13-də

**Kənd təsərrüfatında artım sürəti azalıb - iqlim dəyişikliyinin təsiri...**

yazısı səh.15-də

**Azərbaycanda su ehtiyatları sürətlə azalır - səbəblər**

yazısı səh.14-də

# SEPAH YENƏ AZƏRBAYCANI HƏDƏF ALDI - SƏRHƏDİMİZDƏ HƏRBİ TƏLİMLƏR

Pezeşkianın prezident seçilməsindən sonra münasibətlərin inkişafı haqda gözləntilər fonunda İslam İnqilabı Keşikçiləri Korpusunun yeni gərginliyə yol açan ittihamları və İran Astarasında hərbi təlimlər nəyə hesablanıb?



yazısı səh.6-da

## İnternetin "benzini"ni bahalaşdıranların başı dərddə

Antiinhisar Dövlət Xidməti internet xidmətləri bazarında "kartel sövdələşməsi" ilə bağlı araşdırmalara başlayıb; **Osman Gündüz:** "İlk dəfə rəsmi olaraq sərt yanaşma gördüm"

yazısı səh.3-də



**Talıbovlar iki deputat mandatını geri verdi**

yazısı səh.7-də



**Mixalko, yoxsa "Mixaylo?" - müxalifətlə qapalı görüş müəmması**

yazısı səh.9-da



**Hüseyn Abdullayev "qəfəs"dən çıxmaqdan imtina etdi**

yazısı səh.7-də



## Muxtar Babayevin müavinlərinin sayı artırıldı

**Ekologiya və təbii sərvətlər nazirinin müavinlərinin sayı artırılıb.**

Prezident İlham Əliyev bu barədə fərman imzalayıb. Fərmanla "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 5.4-cü bəndinə dəyişiklik edilib.

Dəyişikliyə əsasən, ekologiya və təbii sərvətlər nazirinin birinci müavini postu yaradılıb. Birinci müavin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad ediləcək.

Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Qeyd edək ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevdir.



## Paytaxta içməli suyun verilməsi bu gün tam bərpa edilir

**Oğuz-Qəbələ-Bakı su kəmərində aparılan təmir-bərpa işləri avqustun 15-i səhər saat 06:00-da tamamlanıb. Hazırda su xəttinin doldurulması və quyuların işə salınması işlərinə başlanılıb.**

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, avqustun 16-sı günorta saatlarında Bakı şəhəri üzrə içməli suyun təchizatı tam bərpa ediləcək.

Su təminatı rejimində dəyişiklik olan ərazilərdə suyun verilməsi normal rejimə qaytarılacaq.




## "Qarabağ" qapısını polşalıya etibar etdi

**"Qarabağ" klubu növbəti transferini reallaşdırıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.**

Qapıçı Mateuş Koxalski heyətə cəlb edilib. Uzun sürən danışıqlar nəticəsində Polşa təmsilçisi "Stal Mielets"lə razılıq əldə olunub.

Klubla 24 yaşlı polşalı qolkiper arasında "3+1" illik müqavilə imzalanıb. O, "Stal Mielets"in heyətində keçirdiyi ötən mövsümdə Polşa çempionatının ən yaxşı qapıçısı adına layiq görülüb.

Koxalski 2022-ci ilin yayından "Stal Mielets"in şərəfini qoruyub. O, bunadək "Legionoviya Legionovo", "Radomyak Radom" və "Legiya"da (Varşava) forma geyinib.

Qeyd edək ki, Mateuş Koxalski bu ilin iyununda Polşanın əsas millisinin AVRO-2024-ə hazırlıq prosesinə dəvət alıb və təlim-məşq toplanışında iştirak edib. O, bunadək U-16, U-17, U-18 və U-19 milli komandalarında da çıxış edib.

## Bu gün də yağış yağacaq

**Avqustun 16-da gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 20-24° isti, gündüz 25-29° isti olacaq.

# Bakıda yayılan xəstəliyin səbəbi bilindi



**Hazırda əhali arasında arabir hərarətin yüksəlməsi, ümumi zəiflik, baş və əzələ ağrıları, yuxarı tənəffüs yollarının zədələnməsi əlamətləri olan öskürək, boğaz ağrısı, burun axması və ya tutulması kimi, bəzən isə ürəkbulanma, qusma, qarın işləməsi kimi hallar müşahidə edilir.**

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib.

Onun sözlərinə görə, bunlara səbəb əsasən müxtəlif virus və bakterial infeksiyalardır: "Hər il isti aylarda kəskin respirator virus infeksiyalarından paraqrip, adenovirus infeksiyaları mühitdə dövr etdiyindən, hazırda da bu tip xəstəliklər qeydə alınır. Hətta isti aylarda bəzən yoluxma saylarında artımlar da müşahidə olunur. Adenoviruslar təkcə tənəffüs yollarını deyil, mədə-bağırsaq sistemini də zədələyə bilir. Eyni zamanda hər iki sistemin zədələnmə əlamətləri ilə müşayiət olunan və isti dövrlərdə rast gələnən rotavirus, hava-damcı və təmasla daha çox yayılan enteroviruslarıdır".

**Ekspert bildirib ki, bu cür infeksiyaların isti aylarda yayılmasının müxtəlif səbəbləri var:** "Bunlara həddən artıq isti havanın immunitetə mənfi təsir göstərməsi, yuxarı tənəffüs yollarının quruması nəticəsində infeksiyalara müqavimətin azalması, kondisionerlərin istifadəsi zamanı açıq hava ilə müqayisədə yaşayış və iş yerlərində kəskin temperatur fərqinin olması, otaqların qapalı saxlanması, yay məzuniyyəti ilə əlaqədar əhalinin müxtəlif kütləvi istirahət tədbirləri, çimərlik mövsümünü və s. aid etmək olar".

**T.Eyvazov həmçinin qeyd edib ki, bu infeksiyalar əsasən yüngül və fəsadsız keçir:** "Özümüzü qorumaq üçün xəstəlik əlamətləri olan şəxslərlə yaxın təmasdan çəkinməli, gigiyena qaydalarına əməl etməliyik. Unutmayaq ki, yay aylarında rast gələnən günvurmanın əlamətləri də bu xəstəliklərlə oxşar ola bilər. Yuxarıda qeyd edilən əlamətləri özündə hiss edən insanlara vaxtında həkimə müraciət etmək tövsiyə olunur".



## Vətən müharibəsi qazisinin meyiti tapıldı

**Sumqayıtda su kanalında batan 26 yaşlı oğlanın meyiti sudan çıxarılıb. Bu barədə Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, avqustun 9-da Sumqayıt şəhəri, Stansiya Sumqayıt adlanan ərazidə avtomobilin su kanalına düşməsi nəticəsində batmış 1998-ci il təvəllüdlü Əliyev Abusət Fəxrəddin oğlunun meyiti Fövqəladə Hallar Nazirliyi Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilıəri tərəfindən suda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Qeyd edək ki, A.Əliyev 44 günlük Vətən müharibəsi iştirakçısı və qazisidir.

## Rusiyaya yeni təyin olunan erməni səfir kimdir?



**Ermənistan prezidenti Vahan Xaçatryan baş nazirin təklifi ilə Qurgen Arsenyanı Ermənistanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri təyin edib.**

Erməni mediası yeni səfirlə bağlı maraqlı təfərrüatlar ortaya çıxarıb.

Xəbərlərə görə, keçən ilə qədər Arsenyan Rusiyada əsl biznes sahibi olub. Arsenyan ixtisasca iqtisadçıdır. Rəsmi tərcümeyi-halına görə, 1987-2000 və 2007-2012-ci illərdə bizneslə məşğul olub, 2000-2007, 2012-2017 və 2021-2024-cü illərdə isə Ermənistan parlamentinə seçilib. Arsenyanın gəlirləri onu parlamentin ən zəngin deputatlarından biri olduğunu göstərib.

2023-cü ilin son bəyannaməsinə görə, Arsenyan 7-si Ermənistan, 1-i Rusiya olmaqla 8 şirkətdə səhmlərə sahib olub.

Lakin onun 51% paya malik olduğu erməni şirkətlərindən biri olan "Eldorado-Armen" MMC 2020-ci ildə müflis elan edilib və 2023-cü ilin sonunda iflas işi onun ləğvi ilə başa çatıb.

Rusiyadakı "Vcredit24" şirkətinin də ona məxus olduğu söylənilir. Bununla belə, 2023-cü il üçün illik bəyannamədə şirkətin artıq mövcud olmadığını göstərib.

## Səbayeldə maşın süpürgəçini öldürdü

**Avqustun 15-də Bakıda ağır yol qəzası baş verib. "Qafqazinfo" xəbər verir ki, Səbayel rayonu Salyan şossesində yerləşən Jurnalistlər binasının qarşısında Elçin Hüseynov idarə etdiyi "Toyota Land Cruiser" markalı avtomobillə qadını vurub. Nəticədə piyada hadisə yerində ölüb.**

İlkin araşdırmadan sonra ölən piyadanın Səbayel MKİB-də süpürgəçi işləyən 1974-cü il təvəllüdlü Həqiqət Abbasova olması məlum olub.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

## Zamirə Hacıyeva Britaniyadakı qolf klubunu da itirdi

**"Azərbaycan Beynəlxalq Bankı"nın (ABB) sabiq rəhbəri Cahangir Hacıyevin həyat yoldaşına məxsus dəbdəbəli London şəhərciyi və qolf klubu müsadirə edilib.**

Ölkə.az xəbər verir ki, bu barədə Böyük Britaniyanın Milli Cinayət Agentliyi (NCA) məlumat yayıb.

Böyük Britaniyada Hacıyevanın əldə etdiyi sərvətin mənbəyi araşdırılıb.

Məlumatda bildirilir ki, hələ 2018-ci ilin noyabrında NCA Hacıyevanın qızının 500 min dollar dəyərində zərgərlik məmulatını müsadirə edib. Daha sonra 2019-cu ilin yanvarında NCA Hacıyevanın ərindən hədiyyə olaraq aldığı 1,5 milyon dollarlıq "Cartier" üzüyünü müsadirə edib.

İndi isə Hacıyeva Londonun Naytsbricdəki 17,8 milyon dollarlıq evindən, həmçinin Berkşir ştatının Askot şəhərindəki qolf klubundan imtina etməyə razılaşıb.

NCA hesab edir ki, həm ev, həm də qolf klubu külli miqdarda dələduzluq, oğurluq və çirkli pulların yuyulması yolu ilə əldə edilib.

NCA-nın məlumatında o da qeyd olunub ki, müsadirə olunan əmlak satışa çıxarılacaq və satışdan əldə edilən xalis gəlirin 70%-ni Böyük Britaniya hökumətinə təhvil veriləcək. Yerdə qalan 30% isə Hacıyevaya qaytarılacaq.

YENİ MÜSAVAT
N 145 (8518) 16 avqust 2024



# İnternetin “benzini”ni bahalaşdıranların başı dərddə

## Antiinhisar Dövlət Xidməti internet xidmətləri bazarında “kartel sövdələşməsi” ilə bağlı araşdırmalara başlayıb; **Osman Gündüz:** “İlk dəfə rəsmi olaraq sərt yanaşma gördüm”

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti genişzolaqlı internet xidmətləri bazarında Rəqabət Məcəlləsinin tələblərinin pozulması əlamətləri üzrə araşdırmalara başlayıb.**

Məlumata görə, son dövrlərdə kütləvi informasiya vasitələrində, bəzi internet provayderlərinin rəsmi internet səhifələrində, habelə sosial şəbəkələrdə genişzolaqlı internet xidmətləri bazarında fəaliyyət göstərən təbii inhisar subyektləri və bir sıra özəl provayderlərin internet xidmətlərinin minimum tariflərini yüksəltməsinə dair xəbərlər yer alır, məsələ ilə əlaqədar Dövlət Xidmətinə çoxsaylı vətəndaş müraciətləri daxil olur.

Belə ki, internet provayderlərinin nəzərdə tutulan dəyişikliklərdən sonra sürəti 40 mbit/s və aylıq xidmət haqqı 18 manat olan cari minimum tarifli fiber optik internet xidmətlərini 100 mbit/s-lik sürət və aylıq xidmət haqqı 25 manat olan tariflə əvəzləyəcəyi məlum olub. Nəticə etibarilə, müştərilər (o cümlədən istehlakçı) üçün formalaşan minimum fiber optik internet xidməti tarifinin dəyəri kəskin yüksəlmiş olacaq. Bundan əlavə, daha aşağı internet sürəti (100 mbit/s-dən aşağı) seçmək istəyən müştərilərin seçim imkanlarının məhdudlaşdırılacağı və onların alıcılıq qabiliyyəti nəzərə alınmadan yüksək sürətli internet paketlərinin yüksək qiymətə təqdim ediləcəyi müəyyən edilib.

Kütləvi informasiya vasitələrində yer alan məlumatların, Dövlət Xidmətinə daxil olan çoxsaylı vətəndaş müraciətlərinin ilkin təhlili nəticəsində internet xidmətlərinin yeni tariflərini müvafiq bazarın əsas iştirakçıları olan təbii inhisar subyektləri və bir sıra özəl provayderlərin kollektiv əsaslarla müəyyən etdiyi, eyni xidmətlərə (eyni sürət və paketlərə) görə eyni qiymətlər təyin etdiyi və bu prosesin ölkədə fəaliyyət göstərən internet provayderlərinin əlaqəli bir şəkildə, uyğunlaşdırılmış hərəkətlər və ya kartel tipli münasibətlərlə həyata keçirəcəyinin ilkin əlamətləri müşahidə olunur.

Hazırda təsərrüfat subyektlərinin fəaliyyətinin əsasları iyulun 1-dən qüvvəyə minmiş Rəqabət Məcəlləsi ilə tənzimlənir. Məcəllənin tələblərinə əsasən, rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olan və ya ola bilən üfüqi (kartel sövdələşmələri) və şaquli sazişlər, o cümlədən uyğunlaşdırılmış hərəkətlər qadağandır və bağlanıldığı andan əhəmiyyətsizdir. Bundan əlavə, rəqabəti məhdudlaşdırmaq məqsədilə təsərrüfat subyektlərinin təkbaşına və ya birgə hökmran mövqedən sui-istifadə hərəkətləri də məcəllə ilə qadağan olunur.



Genişzolaqlı internet xidmətləri bazarının sosial, iqtisadi və strateji əhəmiyyətini nəzərə alaraq, Dövlət Xidməti müvafiq bazarda uyğunlaşdırılmış hərəkətlərin, üfüqi və şaquli sazişlərin, kartel tipli bazar münasibətlərinin təsbit edilməsi, aşağı və yüksək inhisar qiymətlərinin tətbiqinin müəyyənləşdirilməsi və müştərilərin seçim imkanlarını məhdudlaşdırmaqla hökmran mövqe vəziyyətindən sui-istifadə hərəkətlərinin qarşısının alınması məqsədilə Rəqabət Məcəlləsinin tələblərinin pozulması əlamətləri üzrə araşdırmalara başlayıb, bazar iştirakçılarına sorğu məktubları ünvanlayıb, bir sıra görüşlər keçirib və onlardan müvafiq məlumatlar istəyib. Araşdırmaların nəticələrinə uyğun olaraq qanunamüvafiq tədbirlər görüləcək.

**Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, Antiinhisar Dövlət Xidməti minimal internet tariflərinin qaldırılmasına sərt münasibət sərgiləyib:** "İlk dəfə rastlaşdım ki, Antiinhisar Dövlət Xidməti rəsmi açıqlamasında “kartel sövdələşməsi” ifadəsi işlədib.

Həmçinin açıqlamada təqdim olunan internet tariflərində “seçim imkanlarının məhdudlaşdırıldığı” qeyd edilib. Bildirim ki, hazırda təsərrüfat subyektlərinin fəaliyyətinin əsasları cari ilin 1 iyul tarixindən qüvvəyə minən Rəqabət Məcəlləsi ilə tənzimlənir. Məcəllənin tələblərinə əsasən, rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olan və ya ola bilən üfüqi (kartel sövdələşmələri) və şaquli sazişlər, o cümlədən uyğunlaşdırılmış hərəkətlər qadağandır və bağlanıldığı andan əhəmiyyətsizdir.

Bundan əlavə, rəqabəti məhdudlaşdırmaq məqsədilə təsərrüfat subyektlərinin təkbaşına və ya birgə hökmran mövqedən sui-istifadə hərəkətləri də məcəllə ilə qadağan olunur. Antiinhisar Dövlət Xidməti araşdırmalar aparıldığını, nəticəsindən asılı olaraq qərar qəbul ediləcəyini bildirib. İKTA-dan hələ xəbər yoxdur".

**O.Gündüz internet qiymətinin bahalaşmasına da sərt münasibətini bildirib:** “Eyni bir tələbatı ödəmək üçün kənddə yaşayan bir vətəndaş iki il öncə 12 manat ödəyirdi, indi 25 manat ödəməyə məcbur olacaq. Ödəyəcəkmi, istifadə edəcəkmi? Yoxsa şərikli internet olacaq? Dövlət operatorları son iki ildə minimal internet tarifini 2 dəfədən çox qaldırıb.

Son iki ildə “Aztelekom” və “Baktelecom” dövlət operatorlarının qiymət siyasəti aşağıdakı kimi olub :

2022-ci ilədək olan dövr
4 Mb/s - 10 manat
10 Mb/s - 12.5 manat
2022-ci ilədək olan dövr
15 Mbit/s - 15 manat
30 Mbit/s - 18 manat
2023-ci ilədək olan dövr
40 Mbit/s - 18 manat
2024, 15 avqust
100 Mbit/s - 25 manat

Burada reallıq nədən ibarətdir?

Öncə qeyd edim ki, əlçatanlıq baxımından, biznes və inkişaf baxımından, rəqəmsal transformasiyanın güclənməsi baxımından ölkədə yüksək sürətli internet infrastrukturunun olması mühüm əhəmiyyət kəsb edir. Son 3 ildə ölkədə bu istiqamətdə ciddi, nəhəng işlər görülüb.

Amma əhalinin xeyli hissəsinin hələlik yüksək sürətə ehtiyacı yoxdur.

Regionlarda, kəndlərdə yaşayan bəlli bir təbəqə əhali üçün 10 Mbit/s internet sürəti indiki anda yetərlidir. Yəni elementar kommunikasiya üçün, xidmətləri əldə etmək üçün, təhsil və s xidmətlər üçün bu sürət artıqlaması ilə bəs edir.

Regionlarda, xüsusələ də kəndlərdə yaşayan əhali də iki il öncə 10-12 manat verib bu internet sürətini əldə edirdi.

Ötən ildən isə “Aztelekom” bu minimal sürəti 50 faiz 1qaldırıb 18 manat (40 Mbit/s) etmişdi.

İndi isə “Aztelekom” yenidən bu minimal tarifi 40% qaldıraraq 25 manat etməyi düşünür. Təsəvvür edin ki, regionlarda, bəlli bir təbəqədə əhalinin internetə tələbatında ciddi bir dəyişiklik yoxdur, amma onun öz tələbatını ödəməsi üçün zəruri olan internetin qiyməti son iki ildə toplam 100 faiz qalxıb.

Eyni funksiyanı icra etmək, eyni bir tələbatı ödəmək üçün kənddə yaşayan bir şəxs 2 il öncə 12 manat ödəyirdi, indi 25 manat ödəməlidir.

AİF olaraq biz hökumətə, RİNN-ə təklif etmişdik ki, müəyyən müddət üçün regionlarda, xüsusən kəndlərdə internet tarifləri əvvəlki qaydada saxlanılsın. Antiinhisar və İKTA, gözünüzün qarşısında inhisarçı son iki ildə minimal tarifi iki dəfə qaldırıb. İstehlakçıların hüquqlarını qorumaq sizin vəzifənizdir. “Aztelekom” da dövlət operatorudur və rəsmi sənədlərə görə inhisarçıdır.

Tələbatı olmadığı halda, bu pulu kənd əhalisindən qoparmaq, ona tarif seçimi imkanı verməmək nə dərəcədə ədalətlidir? Nə baş verəcək?

Regionlarda, kəndlərdə internet xidmətlərindən imtina edənlərin sayı artacaq.

Regionların və kəndlərin rəqəmsal transformasiyası ləngiyəcək. Qonşular, yaxınlar yığışıb şərikli internet xidməti formalaşdıracaqlar, bu da Azərbaycanın indiki inkişaf səviyyəsi üçün xoşagəlməz hal olacaq. Antiinhisarın və İKTA-nın inhisarçılar qarşısında nə qədər gücsüz olması açıq formada görünəcək".

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**



# Tələbə yataqxanalarında aylıq ödəniş nə qədərdir?

## Bu rəqəm 75-150 manat arasında dəyişir

**Yeni tədris ilinin başlamasına sayılı günlərin qalması ilə bağlı universitet tələbələri kirayə mənzillərlə yanaşı, təhsil aldıqları ali təhsil müəssisələrinin yataqxanalarına da üz tuturlar.**

Bəs yataqxanalarda qiymət və şərait necədir?

“Xəzər TV” xəbər verir ki, yataqxana qiymətləri qurulan şəraitə və otaqdakı tələbə sayına görə dəyişir. Bakı Dövlət Universitetində tələbə evi 220 nəfər üçün nəzərdə tutulub. Yataqxana 5 mərtəbədən ibarətdir. Aylıq ödəniş bir nəfər üçün 75 manatdır.

Azərbaycan Dillər Universitetinin 2 saylı yataqxanası isə qızlar üçün nəzərdə tutulub. Aylıq ödəniş 30 manat təşkil edir. Oğlanlar üçün olan 1 saylı yataqxanada məcburi köçkünlər yerləşdirildiyindən hazırda tələbələr üçün fəaliyyət göstərmir.

Sumqayıt Dövlət Universitetinin tələbə evində isə 1 nəfər üçün ödəniş 50 AZN təşkil edir. Gələcəkdə yeni yataqxananın tikilməsi də nəzərdə tutulur.

Azərbaycan Tibb Universitetində yataqxana qiyməti otaqda yaşayan tələbələrin sayından asılı olaraq dəyişir. Dövlət Neft və Sənaye Universitetində 1 nəfər üçün yataqxana qiyməti 100, Azərbaycan Dövlət Pedaqoji Universitetində 85, Bakı Mühəndislik Universitetində 50, Xəzər Universitetində isə 120-150 manat arasında dəyişir.

YENİ MÜSAVAT
N 145 (8518) 16 avqust 2024




# Quru sərhədlərin açılacağı ilə bağlı yeni tarix

## Ekspertlərə görə, COP29 ərəfəsi belə bir qərar verilə bilər, amma ölkəmizin təhlükəsizliyi ilə bağlı narahatedici xeyli məqam da var

**COVİD-19 pandemiyası ilə əlaqədar olaraq 2020-ci ilin martında tətbiq olunan xüsusi karantin rejimi nəticəsində Azərbaycanın quru sərhədləri bağlanıb. Hazırda Azərbaycanda xüsusi karantin rejiminin vaxtı oktyabrın 1-ə qədər növbəti dəfə uzadılıb. Yada salaq ki, apreldə ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən forum zamanı Prezident İlham Əliyev quru sərhədləri barədə də danışıb. O, quru sərhədlərinin bağlı qalmasının səbəbindən bəhs edib. Dövlət başçısı bildirib ki, quru sərhədinin bağlı saxlanması qərarı COVİD səbəbi ilə verilib.**

"Biz hələ də formal olaraq karantin mərhələsindəyik, eyni zamanda açıq deməliyik ki, sərhədlərin bağlı qalması qərarı təkcə buna əsaslanmır. Biz indi görürük ki, artıq bir müddət keçdikdən sonra sərhədlərin bağlı olması Azərbaycanda təhlükəsizliyi gücləndirib. Əvvəlki dövrlərdə belə hallar çox olub, beziləri açıqlanıb, digərlərini ictimaiyyətləşdirməmişik. Kənardan ciddi təhlükə və problemlərlə üzləşirdik. Bütün potensial risklərimizin kənardan ola biləcəyini deyəndə, məhz bunu nəzərdə tuturdum. Məncə, təfərrüatlara çox varmasam, başa düşəcəksiniz. Amma Prezident, milli təhlükəsizlik məsələləri ilə gündəlik məşğul olan bir şəxs kimi deyə bilərəm ki, biz sərhədlərimizi bağladıqdan sonra milli təhlükəsizliyimiz üçün çox böyük faydalar gördük və bu, reallıqdır. Bəli, insanlar bunu nəzərə almalıdırlar. Biz başa düşürük ki, Azərbaycanda insanlar üçün, eləcə də qonşuluğumuzda yaşayan azərbaycanlılar və başqa millətlər üçün narahatlıq var, lakin milli təhlükəsizlik bütün digər hisslərdən və ya bütün digər səbəblərdən üstün olmalıdır. Xüsusən də şimal sərhədimizdə müharibə, cənub sərhədimizdə böhran olduğu bir vaxtda. Ətrafda isə yağışdan sonra göbələk kimi yaranan yeni münaqişə zonası var və mən hesab edirəm ki, Azərbaycan xalqı bunu başa düşür", - dövlət başçısı qeyd edib. Dövlət başçısı bildirib ki, məsuliyyətli olmaq lazımdır: "Deməli, quru sərhədinin açılması ilə bağlı məqam hələ ki yetişməyib".

Hər karantin müddəti bitməyə yaxın quru sərhədlərinin açılacağı ilə bağlı mövzu aktuallaşır. Bəllidir ki, bu ilin noyabrında Azərbaycan COP29 tədbirlərinə ev sahibliyi edəcək. Bu səbəbdən də çoxsaylı xarici vətəndaşın Azərbaycana gələcəyi planlaşdırılır.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **iqtisadçı Natiq Cəfərli** quru sərhədlərinin uzun müddətə bağlı qalmasının doğru olmadığını deyib: "Azərbaycanda quru sərhədlər açılmalıdır. Ümid edək ki, quru sərhədlər COP29-dan öncə, oktyabrın 1-dən etibarən açılacaq. Ölkəyə çox sayda qonaqlar gəlməlidir. Başqa ölkələrdən velosipedlə gələnlər olacaq. Buna görə də quru sərhədlərin açılması lazımdır. Quru sərhədlərin açılması Azərbaycan iqtisadiyyatına pozitiv təsir göstərəcək, insanların alqışına səbəb olacaq".

**Natiq Cəfərli qeyd edib ki, 2024-cü ilin ilk 6 ayında Gürcüstan 3,1 mln. nəfərə yaxın turist cəlb edib, səfər edən turistlərin 62%-i Gürcüstana quru sərhədlərlə gəlib:** "Türkiyə ilə quru sərhəddən 583 min (Sarp), Rusiya ilə quru sərhəddən 423 min (Kazbek), Ermənistanla quru sərhəddən 342 min (Sadaxlı) nəfər turist gəlib.

Gürcüstanın bu ilin ilk yarısında turizm gəlirləri 2 mlrd. dollara yaxın olub ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 5,2% çoxdur. Yeni qonşu ölkənin quru sərhədlərinin açıq olması Gürcüstana açıq-aşkar üstünlük gətirir, pul qazandırır, yeni iş yerlərinin yaranmasına dəstək olur. Bizdə isə quru sərhədlərin bağlı olması böyük potensialı olan turizm sektorunun inkişafına mane olur. Qapalı sərhədlər ölkə əhalisinə ciddi psixoloji basqı yaratmaqla yanaşı, maddi qazanc imkanlarını da məhdudlaşdırır, iqtisadiyyata ziyan vurur. Bu məsələnin həlli zamanı çoxdan çatıb".

**Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa mövzu ilə bağlı deyib ki, quru sərhədlərin açılması situasiyaya bağlı məsələ də ola bilər:** "İstənilən vaxt açıla bilər. Bu hansı mülahizələrlə nəzərdə tutulur? Birinci növbədə təhlükəsizlik, yaxud hansısa virus riski ilə bağlı məsələ ola bilər. Amma COP29 elə bir tədbirdir ki, bura gəlib-getmək, iştirak etmək, çox sayda insanın bura qatılması nəzərsə tutulan bir tədbir olduğuna görə mümkündür ki, belə bir qərar verilsin. Hələ karantin müddəti oktyabradək uzanıbsa, indidən fikir söyləmək doğru olmaz. Situasiyaya görə qiymətləndirilib, addım atılacaq".

**Milli Məclisin VI çağırış deputatı Ceyhun Məmmədov da mövzu ilə bağlı mövqeyini bildirib:** "Bu barədə məlumat verilərkən dövlət qurumlarının açıqlaması nəzərə alınmalıdır. Biz artıq dəfələrlə bu cür hadisələrin şahidi oluruq ki, kimlərsə hansısa reytinq xatirinə, kütləvi izləyici toplamaq üçün müəyyən açıqlamaları verirlər. Bu, insanlarda müəyyən fikirayrılığına, anlaşılmazlığa aparıb çıxarır. Bununla bağlı hər bir vətəndaş rəsmi qurumların mövqeyini nəzərə almalıdır.

Bununla bağlı yenilik olarsa, vətəndaşlara məlumat veriləcək. Karantin sadə məsələ deyil. Burada ölkəmizin təhlükəsizliyi ilə bağlı narahatlıq doğuran xeyli məqamlar var. Bu gün dünyanın hər yeri qarışıb. Azərbaycan dünyada təhlükəsizlik adasına bənzəyir, bu baxımdan ölkəmiz ilk yerləri tutur. Bu qürurvericidir ki, ölkəmiz bu mövqeyə malikdir. Ölkənin sabitliyinin qorunması hər şeydən önəmlidir. Vətəndaşlar da bunu nəzərə almalı, anlayışla qarşılamalıdır. Zamanla lazım olan qərarlar olacaq. Əsas ölkənin, vətəndaşların təhlükəsizliyidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# "Bu, Azərbaycan üçün böyük reklamdır"

## Hotellər COP29-a hazırdır?

**İki ay sonra ölkəmizdə COP29 tədbiri keçiriləcək. COP29-la əlaqədar on minlərlə şəxsin ölkəmizə gələcəyi gözlənilir. Tədbirə iqlim dəyişikliyi və onunla mübarizə səyləri haqqında daha çox öyrənmək istəyən nümayəndələr, ekspertlər, media işçiləri və sadə vətəndaşlar da daxil olmaqla çox sayda qonaqlar cəlb ediləcək. Bununla əlaqədar ölkəmizdə yerləşən hotellərdə yerləşmə və təhlükəsizliklə bağlı hazırlıqlar davam etdirilir.**

Dövlət Turizm Agentliyindən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, Azərbaycan turizm sənayesi COP29-a gələcək xarici qonaqların qarşılanması üçün tam hazırdır: "Agentlik tərəfindən 300-dən artıq yerləşmə müəssisəsi audit edilib və onlardan təxminən 200-ü təsnif edilərək ulduz dərəcəsi əldə edib. Ulduz təsnifatından keçməyən 40-a yaxın hotelə nöqsanları aradan qaldırmaq üçün müddət verilib və həmin hotellərdə təkrar audit həyata keçiriləcək".

Verilən məlumata görə, agentlik tərəfindən 200 turizm bələdçisinə təlimlərin keçirilməsi və onların sertifikatlaşdırılması, eləcə də tədbir müddətində hotellərə dəstək olmaq üçün 1000-ə yaxın turizm könüllüsünə təlimlərin keçirilərək onların müvafiq hotellərə təhkim olunması üzrə proseslər davam edir.

Qeyd edək ki, Azərbaycanda 750-yə yaxın hotel var. "Turizm haqqında" Qanuna görə, ölkə ərazisində fəaliyyət göstərən hər bir hotel fəaliyyətə başladığı altı ay ərzində ulduz kateqoriyası əldə etməlidir. İndiyə qədər 200-dən çox hotel təsnifatdan keçirilərək ulduz dərəcəsi alıb. Onların arasında beş, dörd, üç, iki və birulduzlu hotellər mövcuddur. 40-a yaxın hotelə tələbləri cavablandıra bilməsi və nöqsanların aradan qaldırılması üçün vaxt verilib.



**Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bir müddət əvvəl bildirib ki, əsas hədəf COP29 kimi möhtəşəm beynəlxalq tədbirin ən yüksək səviyyədə təşkilində hotelçilik sənayesinin rolunun gücləndirilməsidir:** "COP29 çərçivəsində gələcək ziyarətçilərin mərkəzləşdirilmiş şəkildə yerləşdirilməsi üçün rəsmi vahid onlayn rezervasiya platforması üzrə hotellər və digər yerləşmə vasitələri günün tələbləri səviyyəsindədir".

**Məlumata görə, ölkənin müxtəlif regionlarını özündə cəmləşdirən və ekoturizm (qoruqlar, milli parklar), təbiətdə istirahət, ekstremal idman növləri ilə tanışlıq təklif edən 16 yeni turizm marşrutu hazırlanır. Bu marşrutlar bir çox COP29 iştirakçılarının konfrans həftələri arasında keçirəcəyi boş vaxtdan maksimum yararlanması üçün nəzərdə tutulub.**

**Turizm eksperti Rəhman Quliyevin sözlərinə görə, belə tədbirin ölkəmizdə keçirilməsi bütün dünyanın gözlərini ölkəmizə çevirəcək:** "Bu, Azərbaycan üçün böyük reklamdır. Bu tədbir Azərbaycanın nüfuzlu ölkə olmasının bariz nümunəsidir. Belə tədbirin ölkəmizdə keçirilməsinə rəy verən ali qurumlar da Azərbaycanda ictimai asayişin yüksək səviyyədə qorunub saxlanmasını, heç bir dövlətdən asılı olmadan müstəqil siyasət yürütdüyünü əsas gətirərək bu qərarı veriblər. Hesab edirəm ki, bunların ən önəmlisi ölkəmizdə ictimai asayişin qorunub saxlanmasıdır. Noyabrda keçiriləcək tədbirdə 100 minə iştirakçı gözlənilir. Bu tədbirin tam təhlükəsiz keçirilməsi dünya dövlətləri üçün çox önəmlidir. Bir çox dünya dövlətlərinin ali qurumları və başçıları da burada iştirak edəcək. Bu baxımdan bu tədbir olduqca vacibdir".

**Turizm eksperti Ceyhun Aşurovun sözlərinə görə, həcmi, gələn qonaqların sayı daha çox olduğu üçün COP29-a çox ciddi hazırlıqlar gedir:** "Yollar, dövlət təşkilatlarının və hotellərin fəaliyyəti ilə bağlı koordinasiyalı işlər aparılır. Dövlət Turizm Agentliyi bir neçə hotellərdə satışın koordinasiyalı şəkildə həyata keçirilməsinə çalışır ki, gələn qonaqlarda hansısa sual yaranmasın. Tədbirlə əlaqədar bir sıra dövlət rəsmiləri, alimlər, qeyri-hökumət təşkilatlarının rəhbərlərinin bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlməsi gözlənilir. Hotellərdə də bununla bağlı hazırlıqlar görülür. Dövlət tərəfindən də müəyyən iş günlərində dəyişikliklər həyata keçirildi. Şəhər mərkəzində olan iş yerlərində də proseslərin distant şəkildə aprılması nəzərdə tutulur ki, tədbir daha rahat keçirilə bilsin. Hotellər də bununla bağlı satışlarını həyata keçirir və hazırlıqlarını görür".

❑ **"Yeni Müsavat"**

# Qərb nəşrindən iddia - Rusiya Bakını niyə raketlə vursun?

## "Financial Times"ın əldə etdiyi məxfi sənədlərdə Qərblə bağlı hədəflər inandırıcı görünsə də, Rusiyanın "qara siyahı"sında Azərbaycanın da olması kifayət qədər şübhəlidir

**Rusiya donanması NATO ilə potensial münaqişə vəziyyətində Avropanın dərinliklərindəki hədəflərə qarşı nüvə başlıqlı raketlər buraxmağa hazırlayıb. Bunu "Financial Times"ın əldə etdiyi məxfi sənədlər sübut edir. Sənədlər göstərir ki, Rusiya NATO ilə sərhədlərindən xeyli kənara çıxan münaqişə ehtimalını nəzərdən keçirib.**

Belə ki, Rusiya Qərbi Avropaya bir sıra kütləvi hücumlar planlaşdırıb. Hədəflər sırasında Fransanın qərb sahilindəki və Böyük Britaniyadakı obyektlər, Barrou-Furnessdəki sualtı gəmiqayırma zavodu daxildir. Sənədlərdə həm adi, həm də taktiki nüvə başlıqları daşıya bilən raketlərin hədəfləri təfərrüatlı şəkildə göstərilib. Onlar həmçinin göstərirlər ki, rus zabitləri münaqişənin əvvəlində strateji məqsədlərə nail olmaq üçün nüvə zərbələrindən istifadə etməyin məntiqli olacağına inanırdılar.

"Sənədlərdə Rusiya donanmasının müxtəlif istiqamətlərdə sürpriz və qabaqlayıcı zərbələr endirməyə imkan verən yüksək manevr qabiliyyəti vurğulanır", - nəşr yazır. Bu materiallara əsasən, nüvə silahları digər silah növləri ilə birlikdə istifadə üçün nəzərdə tutulub. Operativ istifadədən daha çox təqdimat məqsədilə tərtib edilmiş xəritələrdə Rusiya dəniz qüvvələri üçün Avropada NATO-nun 32 hədəfi təsvir edilib. Xüsusilə Baltik Donanması Bergendəki hərbi dəniz bazası da daxil olmaqla Norveç və Almaniyadakı hədəflərə zərbə endirməlidir. Şimal Donanmasının Böyük Britaniyanın sualtı həyəti kimi müdafiə obyektlərini hədəf alacağı ehtimal edilir.

Təqdimat həmçinin Qara və Xəzər dənizlərində, eləcə də Sakit okeanda mümkün münaqişə ssenarilərini, o cümlədən Rusiyanın hazırkı müttəfiqləri olan Çin, İran, Azərbaycan və Şimali Koreya ilə mümkün müharibələri təsvir edir. NATO-nun keçmiş rəsmisi Uilyam Alburkun sözlərinə görə, bu, Avropada müəyyən edilmiş yüzlərlə, hətta minlərlə hədəfin yalnız kiçik bir hissəsidir. O qeyd edib ki, Rusiyanın bütün qitəni vura bilməsi o deməkdir ki, NATO ilə qarşıdurma zamanı bütün Avropadakı hədəflər risk altında ola bilər.




Qərblə bağlı hədəflər inandırıcı görünsə də, Rusiyanın "qara siyahı"sında Azərbaycanın da olması kifayət qədər şübhəlidir. Çünki Rusiya-Azərbaycan münasibətləri 10 il əvvəl də, indi də müəyyən edilmiş çərçivələr həddindən heç vaxt çıxmayıb. O səbəbdən, Qərb nəşrinin əldə etdiyi sənədlərə şübhə ilə yanaşmağa əsaslar var. Bəs "Financial Times"ın bu iddiasını indi yaymasında məqsəd nə ola bilər?

**Hərbi ekspert Ramil Məmmədli hesab edir ki, nəşrin yaydığı məxfi sənədlərin hansı kəşfiyyata məxsus olduğu bilinmir. "Yeni Müsavat"a danışan hərbi analitikin fikrincə, həmin məlumatlarda Rusiyanın hərbi potensialı diqqətə çatdırılıb. Bununla belə, R.Məmmədli Rusiyanın Avropa şəhərlərinə zərbələrini gözləmir:** "Rusiyanın hərbi qüdrəti Qərb ölkələrinə zərbələri mümkün edir, lakin inanmıram ki, siyasi-hərbi rəhbərlik bu planlamanı həyata keçirib. Rusiyanın apardığı hərbi əməliyyatlar NATO-nu çəkindirmək məqsədi daşıyır. Hazırda Rusiyanın Norveç, Almaniya və ya Britaniya dəniz donanmalarına hücumlar etməsi qlobal müharibəyə səbəb ola bilər. Rus ordusu isə Ukrayna ərazilərində NATO dövlətlərinin hərbi potensialına qarşı vuruşur. NATO silahı ilə rus silahının toqquşması var, amma əsgərləri üz-üzə gəlmirlər".



**Hərbi ekspert İran, Azərbaycan və Şimali Koreya ilə müharibə ehtimalını isə nonsens sayır:** "Bu, bir nəşrin hədsiz şişirdilmiş fantaziyasıdır. Rusiya İranla və Şimali Koreya ilə niyə müharibə etsin axı? Azərbaycanla müharibəni heç təsəvvür etmək olmaz. Əvvəla, Moskva Bəyannaməsi imzalanıb, əlaqələr yüksək səviyyədədir, ikincisi, tərəflərin biri-birinə hazırda hansı nifrəti və ya düşmənçiliyi var ki, müharibə zəmini hazırlasın? Ən nəhayət, bizim Rusiyanın hərbi potensialına qarşı müharibə imkanlarımız nə qədər var? Hələ regionda Azərbaycanla qardaşlığı olan Türkiyənin proseslərə müdaxiləsini demirəm. Yəni hansı tərəfdən baxsan, absurd görünən iddialardır".

**R.Məmmədli hesab edir ki, bu cür iddiaların tirajlanması hibrid müharibənin nəticələridir**: "Rusiyanın Azərbaycanla üz-göz edilməsini arzulayan Qərb dairələri var. Bu da həmin istəyin tərkib hissəsidir. Avropa paytaxtlarında Rusiyanın bütün qonşuları və dostları ilə konfliktə girməsini istəyirlər: Gürcüstan, Ermənistan, Moldova, Ukrayna... İndi də Azərbaycan, sonra Qazaxıstan, Tacikistan, İranla qarşıdurma vəziyyəti yaranması arzusundadırlar. Məqsəd Rusiyanı postsovet məkanında sıxmaqdır. Amma Azərbaycan Rusiya ilə siyasi-iqtisadi münasibətlərdə hər zaman vicdanlı və ağıllı siyasət yürüdür. Eyni zamanda Rusiya ilə münaqişəsi olan ölkələrin sayını artırmaq şimal qonşumuzun zəiflədilməsinə, hegemon gücdən əyalət dövlətinə çevrilməsinə hesablanıb. Faktiki Azərbaycan dezinformasiya hücumlarına məruz qalmaqdadır və belə xəbərlərə qarşı informasiya cəbhəsində mübarizə aparılmalıdır".

**Professor Qabil Hüseynli də zənn etmir ki, Rusiya özünə vuruşacaq yeni cəbhələr açsın:** "Müharibə indi onun içərilərinə daxil edilib və əks-təsir etməyə başlayıb. Onun bu münaqişədən taqətsiz çıxacağını nəzərə alsaq, yeni-yeni müharibələrə girişəcəyini gözləmirəm. Düzdür, Rusiya tarixən qan üçün susayır və müharibə aclığı hiss edəndə hansısa ərazidə münaqişə yaradır, amma budəfəki savaş onu on illərlə yeni müharibələrdən uzaq qalmağa məcbur edəcək. Bəli, Rusiya çökməyə bilər, amma zəifləyəcək və hazırda onun sərhədlərini aşıb Ukrayna əsgərlərinin bu ərazilərə daxil olması göstərir ki, Moskvanın başını indi öz içərisində qatırlar və yorurlar. Belə olan halda, onun müvazinəti qalmayacaq ki, xəritədə göstərilən Fransanın qərb sahilindəki və Böyük Britaniyadakı obyektlərə, xüsusən də Barrou-Furnessdəki sualtı gəmiqayırma zavoduna zərbələr endirsin. Mən indiki halda, belə bir qlobal qanlı müharibəni təsəvvür etmirəm".

**Q.Hüseynli Azərbaycanla müharibəni isə ümumiyyətlə, istisna edir:** "Moskva-Bakı əlaqələri sınaqdan çıxmış münasibətlərdir. Qarabağda başa çatan konflikt və işğal faktına son qoyulması, ardınca sülhməramlı qüvvələrin regiondan vaxtından tez çıxması bu münasibətlərdə yeni bir səhifə açdı. Ona görə də Qərb mediasının bu uğursuz iddiaları ayaq açıb yeriyən məlumatlar deyil. Azərbaycan Rusiya siyasətində korrekt və dəqiqdir. Kreml lideri hər zaman bu əlaqələri yüksək dəyərləndirir. Azərbaycan Prezidenti də Rusiya ilə dostluq və tərəfdaşlıq əlaqələrinə həmişə xüsusi diqqət yetirir. Ukrayna müharibəsi kontekstində Moskva-Bakı münasibətləri spesifik xarakter daşıyır və burada Ankara faktoru nəzərdən qaçırıla bilməz. Bu baxımdan, Rusiyanın müttəfiqləri ilə belə müharibələrinin olacağı haqda deyilənlər həqiqətə nəinki yaxın deyil, üfüqdə belə görünmür. Hazırda İran dron, Şimali Koreya mərmi verir, Rusiya bu ölkələrlə əlaqələrini gücləndirir, niyə onlarla savaşsın ki? O halda nə dostu qalar, nə müttəfiqi, dünyada tam təcrid olunmuş ölkəyə çevrilər, üstəlik, onun müttəfiqləri ilə düşmənçiliyi Qərbdəki rəqiblərinin də çörəyinin üstünə yağ çəkmiş olacaq".

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Ordumuz helikopterləri havaya qaldırdı



**Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, şəxsi heyətə qarşıya qoyulan tapşırıqlar və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanılıb.

"Təlim-məşq uçuşlarının planına uyğun olaraq, bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən helikopterlər gündüz və gecə vaxtı havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, eləcə də digər fəaliyyətlər üzrə tapşırıqları yerinə yetiriblər.

Döyüş hazırlığı və praktiki vərdişlərin daha da artırılması məqsədilə keçirilən təlim-məşq uçuşlarında hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər".

# Daha dörd şəhid dəfn edildi



**Qalıqları aşkar edilən Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan şəhidlər Elman Hüseyn oğlu Camalov, Əbülfəz Əbülfət oğlu Əbilov, Cavanşir Ərşad oğlu Hüseynov və Tahir Şirin oğlu Şirinovun meyitlərinin qalıqları Mehdiabad qəsəbəsi Şəhidlər xiyabanında dəfn olunub.**

Dəfn mərasimində şəhidlərin doğmaları, Abşeron Rayon İcra Hakimiyyətinin vəzifəli şəxsləri, rayon hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Elman Camalov 1970-ci il iyunun 23-də anadan olub. O, 1992-ci il yanvarın 26-da Daşaltı kəndində itkin düşüb. Şəhidin qalıqları Daşaltı kəndindəki kütləvi məzarlıqda tapılıb.

Əbülfəz Əbilov 1961-ci il fevralın 12-də anadan olub. O, 1994-cü il yanvarın 19-da Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində itkin düşüb. Ə.Əbilovun qalıqları Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndindəki kütləvi məzarlıqda aşkar olunub.

Cavanşir Hüseynov 1960-cı il iyulun 15-də anadan olub. O, 1993-cü il oktyabrın 23-də Füzuli rayonunun Şükürbəyli kəndində itkin düşüb. Şəhidin qalıqları Füzuli rayonunun Bala Bəhmənli kəndindəki kütləvi məzarlıqda üzə çıxıb.

Tahir Şirinov 1959-cu il avqustun 23-də anadan olub. T.Şirinov 1993-cü il oktyabrın 23-də Füzuli rayonunun Şükürbəyli kəndində itkin düşüb. Onun qalıqları Füzuli rayonunun Bala Bəhmənli kəndindəki kütləvi məzarlıqda tapılıb.

# SEPAH yenə Azərbaycanı hədəf aldı - sərhədìmìzdə hərbì təlìmlər

## Pezeşkianın prezident seçilməsindən sonra münasibətlərin inkişafı haqda gözləntilər fonunda İslam İnqilabı Keşikçiləri Korpusunun yeni gərginliyə yol açan ittihamları və İran Astarasında hərbi təlimləri nəyə hesablanıb?

**İranda İsraillə qarşıdurmanı Azərbaycan platformasına keçirmək istəyən qüvvələrin olduğu bəllidir. Pezeşkianın "İsraillə qarşıdurmada Azərbaycanı vurmaq" təklifini verdiyi haqda yayılan iddialardan sonra SEPAH yenidən düşmən üzünü göstərib.**

"İranın reaksiyasından çəkinən Bakı öz ərazisində sionistlərin olmasını inkar edir". Bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) sosial şəbəkələrdə dərc olunan mesajında deyilir. "Azərbaycan hökuməti bəyan edib ki, Azərbaycan ərazisində heç bir xarici dövlətin hərbi qüvvələri yoxdur.

İsrail televiziyasının 14-cü kanalının yaydığı məlumatı nəzərə alaraq, belə qənaətə gəlmək olar ki, Bakının bəyanatı həqiqətə uyğun deyil, çünki İsrail ordusunun öz hərbi qulluqçularını Azərbaycandan çıxarmaq tələbi onların ölkədə olmasının dolayısı ilə tanınmasıdır. Əgər hər hansı bir ölkə İsrailə qarşı əməliyyat zamanı onları müdafiə edərsə, o, İrana hücumda iştirak etmiş ölkə sayılacaq", - SEPAH yazıb.

Yada salaq ki, həftəsonu İsrailin "Kan" dövlət televiziya və radio şirkəti informasiya yaydı ki, yəhudi dövlətinin ordusu İrandan gələn hücum təhlükəsi fonunda öz hərbçilərinin Azərbaycan və Gürcüstanda qalmasını qadağan edib. Bildirilib ki, ordu rəhbərliyinin əmrinə əsasən, hazırda "Cənubi Qafqazın bu iki respublikasında hər hansı səbəbdən hərbi xidmətdə olan israillilər dərhal İsrailə qayıtmağa borcludurlar".

Media Agentliyi Azərbaycan barədə həqiqəti əks etdirməyən, yerli və beynəlxalq auditoriyanın ictimai rəyini çaşdırmağa yönəlmiş bu iddianı dezinformasiya adlandırıb. Qeyd edək ki, İran çoxdan Azərbaycanla sərhəddə İsrailin "kəşfiyyat obyektləri" yaratdığında israr edir. Tehran indiyədək Azərbaycanda İsrail obyektlərinin mövcudluğunun hər hansı dəlilini təqdim etməyib.

Rəsmi Bakı isə dəfələrlə bunu təkzib edib, öz ərazisindən İrana qarşı hər hansı düşmənçilik hərəkətlərinə yol verməyəcəyini bildirib.

Bu informasiya təxribatından sonra İranın Hərbi Dəniz Qüvvələri Xəzər dənizində, Azərbaycanla həmsərhəd Astara sahillərində təlimlər keçirib. "Mehr" agentliyinin məlumatına görə, dəniz müdafiəsi təlimi Astaradakı hərbi dəniz bazasında baş tutub. Təlimlər zamanı hipotetik hədəflərə hücum edilib. Astara qubernatorunun müavini Həmid Musəvinin sözlərinə görə, təlimin məqsədi dəniz qüvvələrinin hazırlığını maksimum dərəcədə artırmaq olub.

Pezeşkianın prezident seçilməsindən sonra münasibətlərin inkişafı haqda gözləntilər fonunda İranın əsas gücü olan SEPAH-ın yeni gərginliyə yol açan ittihamları, İran Astarasında hərbi təlimlər nəyə hesablanıb? HƏMAS liderinin öldürülməsinə görə Təl-Əvivə qisas vədi andı içən İran diqqəti Azərbaycana yönəltməklə hədəfmi dəyişdirmək istəyir?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifovun sözlərinə görə, HƏMAS liderinin Tehranda öldürülməsi İrana bir dövlət kimi böyük zərbədir:** "Əgər bir dövlətin təhlükəsizlik qüvvələri ölkəyə gəlmiş ali qonağı qorumaq qədər acizdirsə, bu dövlətin cəmiyyətin diqqətini həmin biabırçılıqdan yayındırmaqdan başqa çarəsi qalmaz. İran rəsmlərinin HƏMAS liderinin öldürülməsindən sonra ictimai fikri bu faktdan yayındırmaq məqsədilə etdikləri çıxışların fəlsəfəsi də bundan ibarətdir. İranın hərbi gücü İsrailin hərb maşını qarşısında aciz durumdadır. Ancaq İran hakimiyyəti bunu heç bir formada etiraf edə bilmir. Belə olan halda, cəmiyyətin diqqətini bu uğursuzluqdan yayındırmaq istəyirlər.

Guya İranın hərbi müstəvidəki bütün uğursuzluqlarının kökündə dayanan əsas amillərdən biri Azərbaycanın İsraillə dostluq etməsidir. Otuz il erməni dəyirmanına su tökən və üç tərəfdən blokadada qalaraq dalana sıxılmış işğalçı Ermənistana bütün səviyyələrdə yardımlar edərək ona nəfəslik verməklə bu terrorçu dövləti dəstəkləyən İran indi hərbi müstəvidəki bütün uğursuzluqlarının kökünü Azərbaycan-İsrail dostluğuna bağlamaq istəyir.

Dəfələrlə demişəm ki, İranda kimin prezident olmasından asılı olmayaraq, bu dövlətin mahiyyəti dəyişməyəcək. Dövlətin idarə olunmasında dini bir alət kimi istifadə edən bu rejimin mahiyyətinin dəyişməsi mümkün də deyil, onun özü dəyişməlidir.

İsraillə Azərbaycan arasında hərbi müstəvidə əməkdaşlıq mövcud olduğundan hər hansı bir İsrail hərbçilərinin Azərbaycanda olması mümkündür. Məsələn, elə İsraildən alınmış hərbi texnikanın istifadəsi üzrə Azərbaycan hərbçilərinə müəyyən təlimlər verən beş-on İsrail hərbçisi Azərbaycanda ola bilər. Bu nə deməkdir? Məgər belə bir fakt Azərbaycan ərazisində İsrail hərbi bazalarının olması deməkdirmi? Bu, sadəcə, absurddur!

İsrail hərb maşını qarşısında özünün "dayan, doldurum" silahları ilə heç nə edə bilməyən İran hökuməti və onun SEPAH adlı hərb aparatı bütün uğursuzluqlarının kökünü başqa yerlərdə axtarmaq zorundadılar. Sual olunur, HƏMAS liderinin Tehrandakı biabırçı qətlindən sonra İsraili vuracağına and içən molla hakimiyyəti nədən hadisədən ötən müddətdə bunu etmir? Etməyəcək! Çünki bir-bir neçə ay öncə etdiyinin həm nəticələrini gördü və həm də layiqli cavabını aldı".



**Hərbi ekspert Səxavət Məmmədin fikrincə, İran-İsrail arasındakı gərginlik mütləq şəkildə bizim regiona təsirsiz ötüşməyəcək:** "İlkin olaraq informasiya yayıldı ki, İranın yeni prezidenti Məsud Pezeşkian SEPAH-a əmr edib ki, Azərbaycandakı İsrail hərbi bazaları vurulsun. Bunun dezinformasiya olduğunu düşünürəm. Çünki İranda Azərbaycanla barışmaz mövqedə olan qurum SEPAH-dır. Yəni bu təklif SEPAH-dan gedib, Pezeşkian razılıq versə idi, həqiqətəuyğun olardı. Rəsmi Bakı buna cavab vermək istəmədi. Çünki düşündülər ki, dezinformasiyadır. Məsələ ondadır ki, bu dezinformasiya olsa belə, buna cavab vermək vacib idi. Çünki Azərbaycan bir yandan İranla münasibətləri düzəltmək üçün addımlar atır. Digər yandan isə bu dezinformasiya cəmiyyətdə müzakirəyə çıxarılmışdı. İsrail tərəfinin Azərbaycan və Gürcüstandakı hərbçilərini geri çağırmaq və bu iki ölkəyə səfəri qadağan etmək informasiyası isə Azərbaycan və Gürcüstanı zərbə altına qoymaqdan başqa bir şey deyildi. Çünki Azərbaycan tərəfi ərazimdə başqa bir ölkənin hərbi bazası yoxdur desə də, Azərbaycana qarşı həmişə qərəzli olan SEPAH bunu fürsət bilir. İsrail "Azərbaycanda heç bir hərbi bazam yoxdur" açıqlaması verməklə əslində gərginliyi azalda bilərdi. Ancaq İsrail tərəfi bunu etmədi. Görünür, gərginliyin qalması və davam etməsi hər kəsə sərf edir.

Çox maraqlı məqam həm də budur ki, türkiyəli bəzi ekspertlər İranda baş verən hər hadisədə davamlı olaraq Azərbaycanı ittiham edirlər. Helikopter qəzası, ardınca Haniyənin ölümü və hərbi bazalar haqda dezinformasiyalar öncə bəzi türkiyəli ekspertlərin dilindən səslənib. SEPAH gərginliyi artırmaq üçün addımlar atacaq. Hərbi təlimlər keçiriləcəyi də gözlənilən idi. Onlar bunu bir növ əzələ nümayişi kimi edəcəklər. Azərbaycan tərəfi dəfələrlə İrana sübut edib ki, onun ərazisində heç bir ölkənin hərbi bazası yoxdur. Bəli, Azərbaycanda bir neçə ölkənin mütəxəssisi var. Hər alınan silaha görə mütləq şəkildə müqavilədə mütəxəssisin gələcəyi də qeyd olunur, bu ümumi məbləğə daxil edilir. Bunu hansısa ölkənin hərbi bazası kimi təqdim etmək yalnız qərəzdən irəli gələ bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## "İran güclü rəqib qarşısında səs çıxara bilmir" - Yücel Karauz

**ABŞ bir daha çıxmamaq şərtilə Qafqaza yerləşir. Bunu da Ermənistan vasitəsilə həyata keçirir. Eyni addımları Rumıniya və Yunanıstanda da atıblar.**

Bu sözləri Axar.az-a ABŞ-ın Zəngəzurda gizli hərbi baza qurması ilə bağlı yayılan məlumatlar haqqında danışan Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi **Yücel Karauz** deyib.

General bildirib ki, bunun arxasında bir sıra strateji məqsədlər dayanır: "Birincisi, İranı nəzarət altında saxlamaq, ikincisi, Türkiyəni şərqdən mühasirəyə almaq, üçüncüsü, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanmasını əngəlləmək, münaqişə vəziyyətindən öz məqsədləri üçün istifadə etmək, sonuncusu isə Rusiyanı Gürcüstana doğru genişlənəcək şəkildə cənubdan mühasirəyə almaqdır. Bütün bunlar fonunda ABŞ-ın qapalı və açıq şəkildə Ermənistanı təlimlər, silah yardımı vasitəsilə dəstəkləyərək, bölgədə ədalətli sülh istəmədiyini açıq şəkildə deyə bilərik".

**Karauz İranın səssizliyinin ağlasığmaz davranış olduğunu vurğulayıb:** "İran heç vaxt güclü rəqib qarşısında səsini çıxara bilməyib. İranın dini lideri Xamenei Pezeşkianın andiçmə mərasimində Paşinyanı qəbul edib, Zəngəzur dəhlizinin açılmasının Ermənistanın milli təhlükəsizlik maraqlarına zərbə olması, sərhədlərin toxunulmazlığı və "qədim" dostluq, qardaşlıq barədə nağıllar danışdı. Amma Zəngəzurda ABŞ hərbi bazasının qurulmasının əsas hədəfinin İran olduğunu bilə-bilə bu haqda Ermənistana bir kəlmə belə etiraz bildirmədi. Təsəvvür edin, ən böyük düşmən elan etdikləri ABŞ-ın belə orada olmağına razıdırlar, amma türkün Zəngəzurda olmasını milli təhlükəsizlik maraqlarına təhdid hesab edirlər. İran Suriya və İraqda olduğu kimi, məntiqə sığmayacaq addımlar atır".

# Talıbovlar iki deputat mandatını geri verdi

## Naxçıvan Ali Məclisinin sabiq sədri yaxın ətrafına da deyib ki, onlar, ümumiyyətlə, siyasi proseslərdən çəkilməyə qərar veriblər, bunun nə qədər davam edəcəyi isə...

**Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclası keçirilib. İclasda "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında", "Büdcə sistemi haqqında", Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi barədə məsələlər müzakirə olunub.**

Naxçıvan Ali Məclisi sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə keçirilən iclasda məclisin sabiq sədri Vasif Talıbov və oğlu Seymur Talıbov yenə görünməyib. Ali Məclisin 7 saylı Aralıq seçki dairəsindən seçilən deputatı Vasif Talıbov və 25 saylı Naxçıvan şəhər seçki dairəsinin deputatı Seymur Talıbov iclasda iştirak etməyib. Onların hansı səbəbdən iclasda iştirak etmədiyi məlum deyil. Qeyd edək ki, Talıbovlar Ali Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edir. YAP-ın Ali Məclisə seçkilərdə Vasif Talıbov və Seymur Talıbovun namizədliyini irəli sürməyəcəyi dəqiqdir.

Nəzərə alaq ki, Vasif Talıbov birinci, ikinci, üçüncü, dördüncü, beşinci və altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinə 1 saylı Şərur-Sədərək seçki dairəsindən deputat seçilib. Amma bu dəfə həmin dairədən Vasif Talıbovu Ziyafət Əsgərov əvəz edib.

Bəllidir ki, sentyabrın 1-də Naxçıvan Ali Məclisinə də növbədənkənar deputat seçkiləri keçiriləcək. Məlumat üçün bildirək ki, Naxçıvan Ali Məclisinə namizədlər 45 mandat uğrunda mübarizə aparacaqlar. 2020-ci ildə formalaşan Ali Məclisin 45 deputatından 42-si Yeni Azərbaycan Partiyasının üzvü olub. Vasif Talıbov Ali



Məclis sədri, Azər Zeynalov isə onun müavini seçilib. Vasif Talıbovun oğlu Seymur Talıbov da Ali Məclisin deputatlarından biri olub.

Vasif Talıbov vəzifəsindən istefa verdikdən sonra onun iqtisadi təsir imkanlarının zəiflədilməsi prosesinə start verildi. Talıbovun nəzarətində olan Azərbaycandakı iri biznes subyektləri əlindən alındı, eyni zamanda onun xaricdəki biznesi ilə bağlı araşdırmalara başlanıldı. Seymur Talıbov da Naxçıvan Dövlət Universitetinin prorektoru vəzifəsindən azad edildi. Seymur Talıbovun elə o ərəfələrdə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti postundan istefa verdiyi bildirilirdi. İddialara görə, Talıbov yaxın ətrafına da deyib ki, onlar, ümumiyyətlə, siyasi proseslərdən çəkilməyə qərar veriblər. Bunun nə qədər davam edə biləcəyi isə bəlli deyil. Vasif Talıbovun anadan olduğu kənddə yerləşdiyi və zəruri ehtiyaclar yaranmasa, evdən çıxmadığı haqda mediada gedən məlumatlar bu günədək təkzib olunmayıb.

Naxçıvandakı bir mənbə Talıbovların YAP-dan çıxacaqlarını da istisna etməyib. Amma bunu mümkün qədər səs-küysüz etmək istəyirlər. Yeri gəlmişkən, Azpolitika.infonun araşdırması zamanı məlum olub ki, YAP-ın "yap.org.az" saytında yerləşdirilən rayon təşkilatları siyahısında, ümumiyyətlə, Naxçıvan MR ərazi təşkilatının adı yoxdur. YAP Naxçıvan təşkilatı barədə internetdə axtarış verdikdə vaxtilə keçirilən iclaslar haqqında bəzi qəzetlərdə və internet saytlarında məlumatlar çıxır. Onların əksəriyyəti isə Ali Məclisin keçmiş sədri Vasif Talıbov dönəminə aiddir.

Bildirək ki, Vasif Talıbov 2022-ci ildə YAP-ın yaradılmasının 30 illik yubileyi münasibətilə Bakıda keçirilən tədbirə qatılmaq üçün Naxçıvandan paytaxta gəlmişdi. Lakin Vasif Talıbovu tədbirin keçirildiyi binaya buraxmamışdılar. O günlərdən Vasif Talıbovun hakim partiyadan uzaqlaşdırılacağı xəbəri gündəmdən düşmür.

Maraqlıdır ki, Vasif Talıbovu və oğlunu hakim partiyadan uzaqlaşdırmağa tələsmirlər.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Vasif Talıbovun gələcəyi onun özünü aparmasından asılıdır:** "Görünən odur ki, postundan uzaqlaşdırılmasından ötən 2 ilə yaxın vaxt ərzində Vasif Talıbov "oyun qaydaları"ndan kənara çıxmayıb. Ona göndərilən işarələra sözsüz əməl edib".

**Onun sözlərinə görə, "Naxçıvan xanı"nın gözlənilməz sözəbaxanlığı itirəcəklərinin çox olması ilə bağlıdır:** "Vasif Talıbov vəzifədə olanda nə qədər ötkəm, aqressiv idisə, vəzifədən yola salınandan sonra bunun əksi müşahidə edilir. Daha onda özündənrazılıq, mənəmlikdən əsər-əlamət yoxdur. Xatırlayırsınızsa, 2019-cu ildə Azərbaycan regionlarının inkişafı, kadr və struktur islahatlarının gerçəkləşməsinə başlanılarkən, Naxçıvanda kadr islahatlarına qarşı Vasif Talıbov tərəfindən sərt təpki göstərildi. Bakıdan göndərilən kadrlara aqressivlik göstərilir, işləmələrinə imkan verilmirdi. Əlbəttə ki, bu, mərkəzi hakimiyyətin diqqətindən qaçmırdı. Naxçıvanda Vasif Talıbovun 27 illik "xanlığı"nın sonu gəldi. Vasif Talıbovun özünü 1 günün içində kreslosundan aşırdılar, ətrafındakı korrupsioner komandasının əsas üzvlərini isə həbs etdilər. 144 milyon manat büdcə vəsaitini ələ keçirən maliyyə naziri, 132 milyon manat vəsaiti ələ keçirən gömrük rəsmisi tutuldu, bu haqda ictimaiyyətə məlumat verildi. Aydın idi ki, tutulan vəzifəli şəxslər özbaşına bu qədər vəsaitləri ələ keçirə bilməzdilər. Bu araşdırmalar davam etdirilsəydi, əlbəttə ki, Vasif Talıbovun ütülü kostyumunun yaxası istintaqçıların əlinə keçəcəkdi. İllərlə Naxçıvanın təbii sərvətlərinin talanından tutmuş bütün biznes sahələrinin kriminal yollarla Talıbovların nəzarətinə keçirilməsi isbatlana bilərdi. Vasif Talıbov inadkarlığının onu hara aparıb çıxaracağını dəqiq bildiyindən qısa müddətdə davranışlarına korrektələr etməyə üstünlük verdi. Onun indiki "modu" hələ ki problem yaratmır. Ona görə də Vasif Talıbovun, onun oğlunun hakim partiyadan qovulması da gerçəkləşmir".

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

# Hüseyn Abdullayev "qəfəs"dən çıxmaqdan imtina etdi

## Ev dustaqlığına buraxılmayan sabiq deputat müalicə müəssisəsinə köçürüləcək

**Avqustun 15-də sabiq deputat Hüseyn Abdullayevin məhkəməsi başlayıb. "Report" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Hüseyn Abdullayevin vəkilləri müvəkkillərinin proses zamanı yanında əyləşməsi ilə bağlı vəsatət verib. Məhkəmə vəsatəti təmin etsə də, təqsirləndirilən şəxs bundan imtina edib.**



Daha sonra təqsirləndirilən şəxsin vəkilləri vəsatət verərək bildirib ki, müvəkkillərinin səhhətində ciddi problemlər var. Ona görə də ailəsinin hesabına şəxsi həkimlə təmin olunmalı, həmçinin özəl xəstəxanaların birində müalicə olunmasına şərait yaradılmalıdır. Müdafiəçilər təqsirləndirilən şəxsin səhhəti ilə əlaqədar məhkəmə iclasının videokonfrans vasitəsilə və yaxud istintaq təcridxanasında keçirilməsi ilə bağlı da vəsatət təqdim ediblər. Həmçinin müdafiəçilər onun ev dustaqlığına buraxılması ilə bağlı vəsatət veriblər. Vəkillər vəsatəti əsaslandıraraq bildiriblər ki, H.Abdullayev ev dustaqlığına buraxılsa, ailəsi tərəfindən müalicəsi lazımi şəkildə aparılar.

Məhkəmə onun ev dustaqlığına buraxılması ilə bağlı vəsatəti rədd edilib. Məhkəmə digər vəsatəti qismən təmin edərək onun müalicə müəssisəsinə köçürülməsi ilə bağlı vəsatəti qismən təmin edib.

Xatırladaq ki, 2019-cu ilin oktyabr ayında Bakı Hərbi Məhkəməsində sabiq deputat Hüseyn Abdullayev, onun anası Zeynəb Abdullayeva, Həbib İbrahimov, Xalid Əliyev, Namiq Babayev, İntiqam Süleymanov, Pərviz Kazımov, Zaur Quliyev və Nazim Əliyevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.

Məhkəmənin hökmü ilə H.Abdullayev 6 il müddətinə azadlıqdan məhrum edilib. Sabiq deputata hədə-qorxu ilə tələb etmə, qanunsuz sahibkarlıq, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma və digər əməllərlə bağlı ittiham verilib. Baş Prokurorluqdan verilən xəbərə görə, Abdullayev Hüseyn Abbas oğlu və qeyriləri tərəfindən bir sıra Avropa ölkələrində külli miqdarda pul vəsaitlərinin leqallaşdırılmasına dair xarici ölkələrin aidiyyəti orqanlarından daxil olmuş müraciətlər əsasında Baş Prokurorluğun aidiyyəti idarəsində araşdırmalar aparılmış və daxil olmuş materiallar İstintaq idarəsinə təqdim edilməklə istintaq yolu ilə araşdırılıb.

İstintaqla Hüseyn Abdullayevin bilə-bilə cinayət yolu ilə əldə etdiyi əmlakın həqiqi mənbəyini gizlətmək məqsədi ilə özünün və ailə üzvlərinin adlarına ölkəmizdə fəaliyyət göstərən banklarda açılmış 7 bank hesabı vasitəsi ilə ümumilikdə 5.5 milyon manatdan artıq pul vəsaitini müxtəlif fiziki və hüquqi şəxslərin Azərbaycan Respublikası və xarici ölkələrdəki bank hesablarına köçürməklə, konvertasiya əməliyyatlarını həyata keçirməklə, habelə qanunsuz əqdlər bağlamaqla yaxın qohumunun adına Azərbaycan Respublikası ərazisində daşınmaz əmlaklar alaraq həmin məbləğdə pul vəsaitinin leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Hüseyn Abdullayev Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində həbs-qətimkan tədbiri seçilib. Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində 28 nəfər tanınıb.

Cinayət əməllərinin törədilməsində iştirak etmiş digər şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində istintaq tədbirləri davam etdirilməklə, leqallaşdırma hesabına əldə edilmiş əmlaklar, digər qanunsuz maliyyə əməliyyatları və əqdlər barədə ayrı-ayrı ölkələrə hüquqi yardımların göstərilməsi ilə bağlı vəsatətlər göndərilib, eləcə də, həmin ölkələrin səlahiyyətli orqanları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində zəruri olan bütün tədbirlər icra edilir.

Qeyd edək ki, Hüseyn Abdullayev 2018-ci ildə həbs edilib.

❑ **"Yeni Müsavat"**



# Tapançalı adam haqda gecikmiş qeydlər

Zamin HACI
zaminhaci@gmail.com

**“Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz”**
*(ata sözü)*

**Kürdəmirin kəndində vətəndaş məscidin pəncərəsini sındıraraq səsgücləndiricini və axundun elektron qəlyanını əkişdirmişdir. Aparılan operativ istintaq-əməliyyat tədbirləri ilə qəlyan tapılıb geri qaytarılmışdır. Hazırda səsgücləndirici aranır. Son məlumatlara görə, müttəhim 250 manat dəyəri olan səsgücləndiricini Bakıya aparıb, “20 Yanvar” metrosu tərəfdə naməlum şəxsə 60 manata satmışdır.**

Ehtimal edilir ki, ucuz qiymətə bu aləti alan yoldaş AXC-Müsavat cütlüyünün üzvlərindən biridir. Çünki qədim əyyamlarda onlar məhz həmin metronun üstündə toplaşıb “Qələbə” kinoteatrına tərəf yürüş edirdilər, yolboyunca səsgücləndiricidən müxtəlif şüarlar səslənirdi. İndiki uşaqlar belə şeyləri bilməz. Mən hətta sovetin vaxtındakı 7 noyabr mitinqlərini də xatırlayıram.

Möminlərdən xahiş olunur müvəqqəti də olsa moizələrə yavaş səslə qulaq asmağa çalışsınlar. Lakin bu müddətdə duaların yuxarılara çatmaq ehtimalı zəifləyir. Böyük ehtimalla uşaq pulu da olmayacaqdır.

Məni axundun davranışı xeyli mütəəssir etdi. Bizə belə din xadimləri lazımdır! Çünki idarəyə müraciətində oğurluq edən zəhmətkeşi bağışladığını ərz etmişdir. Məhz buna görə (həm də - humanizm məhkəmə sistemimizin başlıca xüsusiyyətidir) hakim cinayətkara yüngül cəza kəsmiş, azadlığını məhdudlaşdırmışdır.

Hazırda ölkəmizdə azadlığı məhdudlaşdırılan yeganə adam odur. Adama elektron qolbaq taxacaqlar, gecələr evində qalacaq. Məhdudiyyət bundan ibarətdir, çox da narahat olmayaq.

Elektron qəlyan oğurlayana elektron qolbaq taxılması məni elektron əsrində yaşamağımız haqda düşüncələrə qərq etdi. Haradan baxsan inkişafdır. Dünən bu münasibətlə internetin də qiyməti qalxdı. Eşq olsun, dəstəkləyirəm. Qarşıdan gələn deputat seçkisində də söz verirəm Madər müəllimə səs verəcəyəm.

Həqiqətən, bəşəriyyət qısa zaman kəsiyində inqilabi addımlar atıbdır. İndi kiməsə “cütləşmiş telefon nədir” soruşsan, ya gülər, ya da anlamaz. Halbuki cəmi 30 il qabaq Bakı şəhərində xeyli belə ev telefonu nömrələri vardı. Qonşu ilə sənə eyni nömrəni verirdilər. Dəstəyi qaldırırdın, əgər qonşu danışırdısa, gözləyirdin, söhbəti bitirirdi, sonra sən zəng vururdun. Hətta istəsən fasilə müddətində qonşunu dinləyə bilərdin. Səbəb isə bu idi, ATS-də boş “yuvacıqlar” çatışmırmış.

Hələ 2 qəpiyə küçədən, telefon aparatından zəng vurmaq, “Nizami” metrosundan aşağıdakı şəhərlərarası telefon stansiyasından hansısa başqa şəhəri sifariş verməK... Tam bir romantika idi. İndi tik-tokda-zadda eşələnən gənclik bunun romantikasını haradan qansın?

1999-cu ildə mənə Çaykənd kəndindən Bakıya zəng vurmaq lazım gəlmişdi, yerli telefon stansiyasına getmişdim. Orada telefonçu qızlar oturmuşdu, cürbəcür naqilləri fərqli deşiklərə taxıb-çıxarmaqla Bakı ilə əlaqə yaradırdılar. Lap “Telefonçu qız” filmindəki ab-hava vardı. O filmi 1962-ci ildə çəkmişdilər, xatırladıram. 1999-cu ildə 1962-ci illə toqquşmaq nə gözəl idi...

Hələ poçta gedirdin, çeki göstərirdin, qazın-işığın pulunu ödəyirdin. Görəsən, həmin qadınlar indi nə işlə məşğuldur? Bir ara bizim poçt bekar qalıb sabun, günəbaxan yağı satırdı, indi xəbərsizəm. Zaman hamımıza qarşı amansızdır.

Bircə o yuxarıdakı axunddan başqa. Məncə, həmin axund əbədi yaşayacaqdır.

Sonda Yusuf Dikeç əhvalatına öz şərhimi yazım. Düzdür, gec oldu bir az, ancaq gec olsun, güc olsun. Söhbət olimpiadada xüsusi avadanlıqlar taxmadan güllə atan türk idmançıdan gedir. Onu 2024 olimpiadasının əsas memlərindən biri sayırlar. Bütün dünya həmin şəkli paylaşırdı. İlon Maskdan tutmuş, hansısa kürdəmirli kəndliyə qədər.

Halbuki o silahlı adam bəşəriyyətin simvoludur və bu populyarlığın alt qatlarında bizim necə manyak canlı olmağımız yatır. Bir-birimizi, həmçinin başqa canlıları öldürməyə, güllələməyə, atəş açmağa dəhşət maraqlıyıq.

21-ci əsrin rəmzi obrazı tapançalı adamdır. Və biz bundan ləzzət alırıq. Xəstə deyilikmi?

# Sülh sazişinə “ölü qrup” əngəli - İrəvan onu da icra etmir

## Bakı sülh danışıqlarında ATƏT-in gorbagor olmuş missiyasının ləğvini tələb edir, Ermənistan isə “bəlkə də qaytardılar” kimi utopik xülyalarla yaşadığı üçün razılaşmır...




**Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Ermənistanla sülh müqaviləsinin hansı şərtlərlə imzalana biləcəyi ilə bağlı rəsmi Bakının mövqeyini açıqlaması İrəvanda ciddi reaksiya doğurub.**

Yada salaq ki, Elçin Əmirbəyov bildirib ki, Ermənistan konstitusiyası dəyişdirilməyənə qədər sülh müqaviləsinin imzalanması mümkün deyil. Digər problemli məsələ isə ATƏT-in Minsk Qrupunun ləğvinə Ermənistanın razılıq verməsidir. Bu bəyanatla əlaqədar factor.am saytı Ermənistan Xarici İşlər Nazirliyinə yazılı sorğu göndərib. Nazirlik konstitusiyaya dəyişikliklər prosesinin Ermənistanın daxili işi olması ilə bağlı əvvəlki mövqeyini sorğuya cavabında yenə təkrar edib. Minsk Qrupunun ləğvi məsələsi ilə bağlı deyilənlərə isə reaksiya bildirilməyib.

“Yeni Müsavat”ın siyasət şöbəsi yazır ki, ATƏT-in Minsk Qrupunun hələ də rəsmən ləğv edilməməsinin arxasında Ermənistanın və məlum beynəlxalq dairələrin gizli planlarının olduğu bəllidir. İlk növbədə Minsk Qrupunun həmsədr ölkələri bu yolla bölgəmizə yenidən nüfuz edəcəklərinə ümidlərini itirmirlər. Ermənistan isə hələ də revanşist xəyalları ilə yaşadığı üçün keçmiş Dağlıq Qarabağ ətrafında münaqişənin nə vaxtsa yenidən başlayacağı və Minsk Qrupunun gərək olacağı ümidləri ilə ləğv edilməsinə tələsmir. Ermənistan parlamentinin sədri Alen Simonyan deyib ki, diqqəti sülh sazişinin imzalanmasına yönəltmək lazımdır, sazişdən sonra Minsk Qrupu öz-özünə ləğv ediləcək.

Prezident İlham Əliyev bu ilin fevralında Almaniyanın Münxen şəhərində ATƏT-in fəaliyyətdə olan sədri ilə görüş zamanı təşkilatın bu cür fəaliyyətsiz mexanizmlərinə diqqət çəkmişdi. Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda ATƏT-in Minsk Qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacibliyini bildirmişdi.

**AMİP sədri Arzuxan Əlizadə “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, Ermənistan ona havadarlıq edənlərin təhriki ilə revanşist addımlar atır:** “Onlar "bəlkə də qaytardılar" xülyası ilə yaşayırlar. Ona görə ümidlidirlər ki, Minsk Qrupunu dirçəltmək olar. Əslində bu mexanizm çoxdan ləğv olunub. Çünki həmsədr ölkələr Ukrayna cəbhəsində fərqli səngələrdədirlər. Odur ki, bu qrupun bir araya gələrək fəaliyyət göstərməsi mümkün deyil. Üstəlik, onların üzərinə götürdüyü münaqişənin həllində vasitəçilik missiyasına artıq ehtiyac yoxdur - Qarabağın işğal olunması faktına Azərbaycan Ordusu son qoyub. O baxımdan Minsk Qrupunun ləğvi haqlı tələbimizdir və sülh danışıqlarında bu şərti irəli sürməyimiz yerindədir”.

**Partiya sədri vurğuladı ki, sadəcə, Ermənistanın yenidən silahlandırılması müşahidə olunur, bu azmış kimi, rəsmi İrəvan Azərbaycana qarşı ərazi iddialarından imtina məsələsini gündəmdən məqsədli şəkildə çıxarmağa çalışır, o cümlədən blokadada olan nəqliyyat kommunikasiyalarının açılması razılaşmasını arxa plana keçirməyə cəhd edir:** "Bu da şübhəsiz ki, sülh müqaviləsinin yaxın zamanda imzalanmasını mümkünsüz edir. Əgər belə davam edəcəksə, o halda “Ermənistan” adlı qondarma dövlətin mövcudluğunu qoruyub saxlamaq problemi ilə üzləşəcəklər".

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev isə bildirdi ki, Minsk Qrupunun ləğvi ilk növbədə ATƏT-in qərarı ilə olmalıdır**: “Ermənistanın da buna razılıq verməsi mühümdür. Əslində etiraz da etməyiblər, amma susurlar. Görünür ki, Avropadakı tərəfdaşları onlara bu məsələdə razılıq verməməyi məsləhət görürlər. Xüsusən də həmsədr ölkələrin ikisi - Fransa və ABŞ açıq şəkildə Ermənistanı müdafiə edir, Makron Paşinyandan daha çox ermənilik edir, silah-sursat verməklə dəstəyi gücləndirirlər. Bu dövlətlər Minsk Qrupunda münaqişənin həlli üçün heç bir iş görmədilər, indi isə Ermənistana pıçıldayırlar ki, ləğvinə razılıq verməsin. Halbuki Minsk Qrupu çoxdan gorbagor olub və onun 30 illik səmərəsiz fəaliyyətindən sonra formal şəkildə mövcudluğu lüzumsuzdur”.

**Partiya sədrinin müavini əlavə etdi ki, Rusiya da Minsk Qrupunun varlığında maraqlı deyil və bundan sonra həmsədr ölkələrin birgə toplantısı real görünmür**: “Erməni məsələsində birləşməyi bacarsalar da, indi bölgədə şərtlər dəyişib. Əvvəla, Rusiya-Azərbaycan münasibətləri inkişafdadır. İkincisi, Ermənistan Rusiyanın şinelindən çıxmağa çalışır və ondan üz döndərir. Bu mənada Moskva erməni məsələsində ABŞ və Fransa ilə koordinasiyalı hərəkət etməyəcək. Bu ölkələr Ermənistanı Rusiyadan almağa çalışırlar. Bunun üçün Avropa Birliyinin mülki missiyası sərhədə göndərilir, silah-sursat verilir, birgə təlimlər keçirilir, bununla yanaşı, Ermənistan KTMT-nin "Kobalt-2024" təlimlərini boykot edir, Avroatlantik məkana inteqrasiya kursunu açıq göstərir... Belə olan halda, Rusiya, ABŞ və Fransa Minsk Qrupu formatında necə güclərini bir araya gətirə bilərlər? Axı həm Ukrayna böhranı onları ayırıb, həm də Ermənistanı Rusiyanın peykindən qoparmaq siyasəti yürüdülür. Onsuz da Lavrov bəyan edib ki, bu qrup ləğv edilib. O zaman Minsk Qrupunun olmadığını əminliklə deyə bilərik, yəni de-fakto yoxdur, qalır de-yure ləğvi...”

Qeyd edək ki, Minsk Qrupunun tarixi ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci ilin 24 martında Helsinkidə keçirilmiş görüşündən başlayır. Həmin görüşdə Dağlıq Qarabağda vəziyyət müzakirə olunmuş, ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilmişdi. 1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında həmsədrlik institutu təsis edilmiş, Minsk konfransına iki həmsədrin təyin olunması və Minsk Qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edilmişdi. Minsk prosesinin həmsədrlik institutu təsis olunarkən, ona əvvəlcə Finlandiya ilə Rusiya, daha sonra isə 1995-1996-cı illər ərzində İsveç və Rusiya başçılıq ediblər. 1 yanvar 1997-ci ildən ATƏT-in Minsk Prosesinə Həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq edirlər. 8 aprel 2022-ci ildə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla birgə keçirdiyi mətbuat konfransında ATƏT-in Minsk Qrupunun ləğv edildiyini deyib.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 145 (8518) 16 avqust 2024

# Mixalko, yoxsa "Mixaylo?"- müxalifətlə qapalı görüş müəmması

## Avropa Birliyi rəsmilərinin müxalifət liderləri ilə qapalı görüşü barədə məlumat verilməməsi cəmiyyətdə haqlı suallar doğurub; bəs bu görüşün seçki ərəfəsi keçirilməsində məqsəd nə ola bilər?




**Avropa İttifaqının (Aİ) Bakıdakı ofisində səfir Piter Mixalkonun təşkilatçılığı ilə Aİ-yə daxil olan ölkələrin Azərbaycandakı səfirlərinin müxalif partiya sədrləri ilə görüşü medianın diqqətindədir.**

Qeyd edək ki, avropalı diplomatlar əvvəl Müsavat başqanı İsa Qəmbər və partiyanın sabiq başqanı Arif Hacılı ilə görüşüblər. Bəllidir ki, AXCP sədri və Müsavat rəhbərliyinin arasında münasibətlər gərgindir və bu səbəbdən Əli Kərimli ilə ayrıca görüş olub. Əli Kərimli "Turan"a bildirib ki, əvvəlcə Böyük Britaniya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Fergus Auldi ilə görüşüb. O, səfirlə fotosunu da paylaşıb.

Bəs bu görüşlərdə müzakirə mövzuları nə olub? "Qafqazinfo" yazıb ki, səfir Piter Mixalko müxalifətin hazırkı fəaliyyətsizliyindən gileylənib, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrelin yaranmış durumdan ciddi narazılığını müxalifət təmsilçilərinin diqqətinə çatdırıb. Azərbaycandakı cari durumu qısa şəkildə təsvir edən P.Mixalko deyib ki, uzun illərdir ABŞ və Aİ müxalif qüvvələrin fəallığının təmin edilməsi, hakimiyyətə təsir və təzyiq imkanlarının gücləndirilməsi üçün müxalifətə böyük vəsaitlər ayırıb. Bunun müqabilində isə cəmiyyətin narazı hissəsini arxasınca aparmalı olan müxalifət yalnız virtual məkanda replikalar paylaşmaqla, müxalifətçiliyi imitasiya etməklə məşğuldur. Hazırda seçkilərlə əlaqədar siyasi fəallığı yüksəltməli olan qüvvələr artıq bu imitasiyanı da lazımi şəkildə edə bilmirlər və maliyyə dəstəyi kəsilə bilər.

P.Mixalko maliyyələşmənin davam etdirilməsi üçün müxalifətin qarşısına qoyulan tələbləri səsləndirib. O bildirib ki, hazırkı seçki dövrünün açdığı imkanlardan istifadə edərək kütləvi tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə müxalifət regionlardakı durumu düzgün qiymətləndirməli, şəhər və rayonlarda öz bazasını səfərbər etməli və paytaxt da daxil olmaqla, kütləvi aksiyaların təşkilinə və keçirilməsinə başlamalıdır. P.Mixalko deyib ki, zəruri hallarda müxalifət iğtişaşlardan da çəkinməməli və qarşıdurmaya getməyi bacarmalıdır. Məsələn, bu və ya digər məsələdən narazı olan kütlə tərəfindən etiraz əlaməti olaraq regionlarla Bakı arasında əsas yolların bağlanmasını təşkil etmək mümkündür. Mixalko gənclərin bu prosesə cəlb edilməsinin vacib olduğunu deyib.

İddia olunur ki, müxalifət iradları haqlı sayıb və "Aİ tərəfindən irəli sürülən tələblərin yerinə yetirilməsi ilə bağlı lazımi addımlar atılacağını" vəd edib.

Həmçinin diqqəti cəlb edən məqamlardan biri də masanın üzərində Aİ bayrağı ilə yanaşı LGBT bayrağının qoyulması da olub.

A.Hacılı sosial şəbəkədə ABŞ və Böyük Britaniya səfirlərinin onlarla görüşdə iştirak etmədiyini deyib. O, görüşdə Azərbaycanda ümumi ictimai-siyasi durumu, 1 sentyabr seçkiləri, Azərbaycan-Ermənistan sülh danışıqlarının gedişi, Müsavat Partiyası ilə Aİ ölkələri diplomatik korpusunun nümayəndəliklərinim əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsi aparıldığını söyləyib. Amma LGBT bayrağı haqda heç nə deməyib.

Yada salaq ki, bir müddət əvvəl Ermənistan sərhədində Avropa İttifaqının müşahidə missiyasının Azərbaycana qarşı casusluqla məşğul olduğuna dair ittihamlarına Piter Mixalkonun narazılığından sonra o, Azərbaycan XİN-ə çağırılmışdı.

Rəsmi Bakıdan və Aİ-nin Bakı nümayəndəliyindən iddialarla bağlı heç bir rəsmi açıqlama yoxdur.

Bəs bu görüşün seçki ərəfəsi keçirilməsində məqsəd nə ola bilər? Aİ daxil Qərb təsisatlarının Azərbaycanda gərginlik yaratmaq imkanları varmı?

**VI Çağırış Milli Məclisin üzvü Bəhruz Məhərrəmov sözügedən müxalifət qüvvələrində millilikdən əsər-əlamət görmür:** "Vətən müharibəsində və antiterror tədbirlərində qələbəmizlə cənab İlham Əliyev Qərbin regionda münaqişənin və separatizmin davamlılığında ehtiva olunan imperialist niyyətlərinə kökünə zərbə vurdu. Sonrakı dövrlərdə Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasət, o cümlədən görülən təhlükəsizlik tədbirləri, həyata keçirilən ordu quruculuğu və müdafiə sənayesi həmlələri Azərbaycanın regionda əməliyyat şəraitinə tam və dayanıqlı şəkildə nəzarəti ilə nəticələndi. Təbii ki, beynəlxalq hüququn aliliyinə əsaslanan yeni reallıq Qərb imperializmini razı sala bilməzdi. Hərbi, siyasi və diplomatik yolla hər hansı nəticələr əldə edə və regionda təcavüzkar məqsədlərlə planlarını həyata keçirə bilməyəcəyini anlayan Qərb üzünü yerlərdəki dayaqlarına tutmalı oldu. Bu prosesin gedişində isə tamamilə başqa məqsədlə yaradılmış, lakin bu gün Qərbin imperializm niyyətlərinin realizəsi mexanizminə çevrilmiş Avropa İttifaqı xüsusi rol oynamaqdadır. Hələ 10 il əvvəl "vətəndaş cəmiyyətlərinə dəstək" adı altında regiona soxulmağa çalışan təsisatların Azərbaycanda neytrallaşdırılması digər ölkələrdə qeyri-hökumət təşkilatları çərçivəsində həyata keçirilən pozuculuq fəaliyyətinin Azərbaycanda realizəsinə imkan vermədi. Nəticədə gedişat Avropa İttifaqının özünün bu çirkin missiyanı üstələməsinə, təşkilatın rəsmilərinin şəxsən bu prosesdə hərəkətverici qüvvə kimi çıxış etməsinə gətirib çıxarıb. Avropa İttifaqının Azərbaycandakı missiyasının rəhbərinin mütəmadi şəkildə antimilli ünsürlərlə kommunikasiyası da onu göstərir ki, prosesdə Qərb imperializminin yerli dayağı qismində məhz bu dairələr çıxış edir. Qərb Azərbaycanda radikal müxalifətin güclənməsi və ictimai qayda, ictimai təhlükəsizlik üzərində təhdid mühiti formalaşdıra biləcək gücə çevrilməsində maraqlıdır. İşğal və təcavüz amillərinin puça çıxdığını, o cümlədən müxtəlif qlobal platformalarda hücumların effektsiz qaldığını görən Qərb Azərbaycanı məhz daxildən bu marionetlər vasitəsilə təzyiq altına salmaq, ictimai-siyasi mühitdə birmənalı söz sahibi olmaq istəyir. Lakin proseslərin gedişatı da göstərir ki, "bu qüvvələrin" Azərbaycanda heç bir güc, imkan və nüfuz perspektivi yoxdur. Xalq qalib liderin ətrafında çox sıx birləşib və bu kursa alternativ görmür. Bu mənada, indiki halda Avropa İttifaqı rəsmisinin radikallarla görüşü təsisatın özünün və həmin "partiya sədrlərinin" bir daha ifşasından başqa bir şey olmadı. Görüşün keçdiyi ab-hava, yayılan şəkillərdə masa üzərində olan elementlər də bir daha göstərir ki, 30 ildir özünü "milli" qüvvə kimi təqdim etməyə, sırımağa çalışan bu adamlar əslində iqtidar arzusu, hakimiyyət niyyəti naminə bütün dəyərlərini satmağa hazır olan antimilli ünsürdən başqa bir şey deyillər".

**VI Çağırış Milli Məclisin deputatı Aydın Mirzəzadə bu cür cəhdləri yolverilməz sayır:** "Avropa Birliyi rəsmilərinin Azərbaycanda müxalifət liderləri ilə görüşü barəsində məlumat verməməsi istər-istəməz cəmiyyətdə suallar doğurur. Eyni zamanda özünü hakimiyyətdə görən müxalif partiya liderinin görüş barəsində məlumat verməməsi istər-istəməz müəyyən təsəvvürlərin yaranmasına gətirib çıxarır. Niyə görüşlər ancaq radikal müxalifət liderləri ilə keçirilir? Niyə hakim partiyanın nümayəndələri, mərkəzçi partiyalarla, parlamentdə təmsil olunan partiyaların rəhbərləri görüşlər keçirilmir? Bu o demək deyilmi ki, Avropa Birliyinin müəyyən dairələri Azərbaycanda radikal müxalifətə himayədarlıq edirlər? Onlardan özlərinin müəyyən siyasi məqsədləri üçün istifadə edirlər. Vaxtaşırı Avropanın müəyyən dairələrinin Azərbaycanla bağlı ədalətsiz fikirlərini eşidirik. Onların anti-Azərbaycan bəyanatlarının cəmiyyətdə dəstəklənməməsi üçün müxalifəti işə salmağa çalışırlar. Nədən bir ölkənin daxili siyasətinə belə müdaxilələr edilir? Radikal müxalifətin zəif olmasına gəlincə, birinci səbəb ondan ibarətdir ki, Azərbaycanda iqtidar məhsuldar fəaliyyət göstərir. Cənab Prezidentin rəhbərliyi altında milli maraqlarımızın qorunması istiqamətində böyük işlər görülür. Torpaqlar işğaldan azad olundu, azad olunan ərazilərdə böyük quruculuq işləri gedir. Artıq 10 minə yaxın keçmiş məcburi köçkün geri qayıdıb. Azərbaycanın ümumdaxili məhsulu ildən-ilə artır. Sosial problemlərimiz həll olunur, milli valyutamız olan manat inflyasiyaya uğramır. Görülən işlərlə yanaşı, əlbəttə, görüləsi digər işlər də var. Amma onlar barəsində də cəmiyyətə geniş məlumat verilir. Bu gün radikal müxalifətin problemləri həll etməyə hər hansı bir çağırışı yoxdur. Onların Azərbaycanın inkişaf ilə bağlı proqramları yoxdur. Radikal müxalifət liderləri kompüter arxasından çıxmırlar, cəmiyyətdə olmurlar, sadə insanlara yaxın deyillər. İndiyə qədər radikal müxalifət liderlərini bir şəhidin yasında görən olmayıb. Azərbaycanın taleyüklü məsələləri ilə bağlı beynəlxalq çağırışlarını da eşitməmişik. Quyuya su tökməklə quyu sulu olmur. Radikal müxalifətə nə qədər maliyyə verirsənsə ver, əgər onların cəmiyyətdə dəstəkləri yoxdursa, o zaman elə siyasi bloger kimi fəaliyyət göstərəcəklər. Azərbaycan vətəndaşının seçdiyi və inandığı hakimiyyətin fəaliyyəti bu gün cəmiyyətin maraqlarına cavab verir. Bu gün Azərbaycan hakimiyyəti ölkənin milli müstəqilliyini qoruyur. Ölkəmizin beynəlxalq birlikdə nüfuzunun artması üçün böyük işlər görülür. Azərbaycan bu gün beynəlxalq tədbirlərdə iştirakı arzulunan ölkədir. Rəsmi Bakı ilə əməkdaşlıq etmək xarici ölkələr üçün divident sayılır. Xarici dairələrin daxili siyasətimizə qarışmaları yolverilməzdir. Azərbaycan cəmiyyəti heç zaman bu cür hərəkətləri dəstəkləmir və buna öz etirazını bildirir".

**❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"**



## İstefa verən MSK sədrinin yerinə o gətirildi

**Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əjdər Əliyev bir müddət əvvəl istefa verib. O, Naxçıvan Ali Məclisinə seçkilərdə iştirak etmək üçün vəzifəsini tərk edib.**

Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi onun istefasını qəbul edib. İclasda Naxçıvan Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd olaraq Orucəliyev Ramil Əli oğlunu təklif edib. Namizəd haqqında məlumat verilib və Ramil Orucəliyevin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü seçilməsi ilə əlaqədar Ali Məclisin 2020-ci il 30 dekabr tarixli qərarında dəyişiklik edilməsi ilə bağlı qərar oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

İstefa verən MSK sədrinin yerinə yenisi seçilib.

Belə ki, Əkrəm Hüseynzadə Naxçıvan MSK-nın yeni sədri olub. O, 1983-cü ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Universtetini tarix-filologiya ixtisası üzrə bitirib. Filologiya üzrə fəlsəfə doktorudur.

## Yeni vitse-spikerlərdən biri qadın olacaq?

**Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində namizədliyini irəli sürənlər arasında kifayət qədər qadın var.**

Modern.az-ın məlumatına görə, parlamentin formalaşmasından sonra VI çağırış parlamentin spikeri Sahibə Qafarovanın yenidən Milli Məclisin sədri postuna namizəd olacağı gözlənilir. Əldə etdiyimiz məlumata görə, yeni çağırış parlamentdə spikerin müavinlərindən biri də qadın ola bilər. Belə ki, spikerin müxalifəti və ya bitərəfləri təmsil edən müavinlərindən birinin yerinə qadın deputatın namizədliyinin irəli sürüləcəyi gözlənilir.

Qeyd edək ki, Milli Məclis sədrinin müavinləri Milli Məclisin deputatları sırasından açıq səsvermə yolu ilə seçilir. Vitse-spiker vəzifəsinə namizədliyi ilk növbədə Milli Məclisin sədri, sonra isə deputatlar irəli sürə bilərlər. Milli Məclisin sədri və hər deputat parlament sədrinin birinci müavini və müavini vəzifələrinin hər birinə yalnız bir namizəd göstərə bilərlər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 7 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Açıq səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclis sədrinin müavini seçilir.

Namizədlərin heç biri azı 63 səs almadıqda, Daxili Nizamnamənin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə də heç bir namizəd 63 səs ala bilməzsə, başqa namizədlər göstərilməklə yeni seçkilər keçirilir. Spikerin müavinlərinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir.

Qeyd edək ki, hazırda Milli Məclisin sədri Sahibə Qafarova, sədrin birinci müavini Əli Hüseynli, müavini isə Fəzail İbrahimlidir. Sədrin digər müavini Adil Əliyev isə bir müddət əvvəl Suraxanı rayonuna icra başçısı təyin edildiyi üçün onun mandatı ləğv edilib.

# Seçkilərdə "xəsis namizədlər" və təşviqatla bağlı "ayıb iş..."

### Deputatlığa namizədlərin mediada ödənişli təşviqata meyl etməməsinin səbəbi; Aydın Quliyev bəzi şəxslərin qazi və şəhid ailələrinin üzərindən təbliğat qurmaqlarını tənqid edib



**Məlum olduğu kimi, avqustun 9-da növbədənkənar parlament seçkilərinin təşviqat mərhələsi başlayıb. Sentyabrın 1-də keçiriləcək seçkiyə 25 partiyanın təmsilçiləri və partiyasız iddiaçılar qatılıb. Rəsmi məlumata görə, 1052 namizəd qeydə alınıb. Seçkidə qələbə üçün nisbi səs çoxluğu kifayət edir .**

Namizədlərin yerli KİV-də ödənişli təbliğat kampaniyası üçün şərait də yaradılıb. Amma deputatlığa namizədlər mediada ödənişli təşviqata hələ meyl etmir. Bəzi ekspertlər bunu "xəsisliklə", bəziləri isə televiziyanın tələb etdiyi ödənişin yüksək olması ilə izah edirlər.

**AĞ Partiya sədri, deputatlığa namizəd Tural Abbaslı "Yeni Müsavat"a deyib ki, bir çox media qurumlarının təbliğat-təşviqat müddətində reklam xarakterli yayımlarının qiymətlərinə baxıb:** "Kifayət qədər çox maliyyə tələb edilir. Məlum olur ki, televiziyalarda reklam xarakterli yayımların saniyəsi 25-30 manatdır. Bu baxımdan təbii olaraq namizədlər əsasən sosial mediaya yönəlirlər, çünki orada xidmətlər demək olar ki, pulsuzdur. Hətta kiçik məbləğlərlə reklam yerləşdirə bilirlər, bu məbləğ medianın tələb etdiyi məbləğdən xeyli aşağıdır, üstəlik, çatımlılığı daha genişdir".

**Mövzu ilə bağlı professor Qulu Məhərrəmli bildirib ki, deputatlığa namizədlərin təşviqat kampaniyası əvvəlki illərlə müqayisədə aktiv hiss olunmur:** "Namizədlərin ödənişli olaraq televiziya təbliğat-təşviqatlı ilə bağlı məsələsinə gəldikdə, bəli, burada problemlər var. İlk problem təbii ki, qiymətlərlə bağlıdır. İkinci məsələ televiziyaların nə qədər effektli olması ilə bağlıdır. Üçüncü isə namizədlərin özləri ilə bağlı məsələdir. Çünki namizədlərin siyahısına baxdıqda heç tanınmayan, ictimai arenada görünməyən, öz çevrəsindən başqa digər yerlərdə tanınmayan xeyli namizəd gözə dəyir. Ona görə də onların bu məsələdə marağı da yoxdur. Ola bilər ki, dairə çərçivəsində başqa maraqları olsun, çünki bu seçkidə mənim eşitdiyim bir tendensiya da ondan ibarətdir ki, bəzi namizədlər bir qədər imkanlı namizədlərin olduğu dairələrdən öz namizədliyini verir və oradan müəyyən "alver" işi aparır. Bunu eşitdikcə həm adamın gülməyi gəlir, həm də məyus olursan ki, bu cür ciddi kampaniyadan bu cür bəhrələnmək istəyənlər var.

O da doğrudur ki, hazırda kampaniya daha çox sosial şəbəkələrdə müşahidə olunur. Sadəcə, şəkillərin qoyuluşu, çağırışlar, bunlar sosial şəbəkədə müəyyən qədər fayda verə bilir. Məsələn, Amerikanın seçki tarixində ilk dəfə olaraq Donald Tramp sosial şəbəkələrdə çox güclü kampaniya apardı və ölkənin konstitusiya əsaslarına müəyyən dərəcədə təsir edə, insanları bir araya yığa bildi və sairə. Yəni bunlar da bir tarixdir. Lakin bütövlükdə götürəndə sosial şəbəkə sferası ictimai cəhətdən fəal olanlar üçün çox da cazibəli məkan deyil. Burada seçki kontingentinin daha çox harada olmasına diqqət etmək lazımdır. Məsələn, aydınlaşdıraq ki, bölgələrdə internet, sosial şəbəkələr nə qədər aktivdir, nə qədər çatımlıdır... Bəli, paytaxt Bakıda internet, sosial şəbəkələr aktivdir. Lakin bölgələr üçün bunu demək çətindir".

**Qulu Məhərrəmlinin fikrincə, ən yaxşı təbliğat seçicilərlə birbaşa görüş, namizədlərin platformasıdır:** "Bütün bunların hamısı birbaşa seçicilərlə üzbəüz görüşdə görünür. Əgər o seçicilər görüşə həvəslə gəlirlərsə, deməli, orada aktiv elektorat var, yox, əgər görüşlərə insanlar zorla gəlirsə - hətta bəzən olur ki, say çoxluğu görünsün deyə başqa dairəyə aid seçicilər gəlir - bu o deməkdir ki, orada aktiv seçki kampaniyası yoxdur.

Daha bir məsələ, dairələrdə namizədlərin sayı həddindən artıq çoxdur. Hətta bir çox adamların namizədliyi qeyri-ciddi görünür. Hər dairədən 2-3 aktiv, sözün əsl mənasında deputatlığa namizəd olduqda, bu zaman mübarizə daha aydın gedə bilir. Lakin qeyd etdiyim kimi, "kölgədə" qalan çox sayda namizədlər var ki, onların təbliğatı, platformaları heç bir əhəmiyyət kəsb etmir".

**Təşviqatla bağlı daha bir mövzunu "Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev öz Facebook səhifəsində gündəmə gətirib. A.Quliyev deputatlığa namizəd olan bəzi şəxslərin son davranışları, qazi və şəhid ailələrinin üzərindən təbliğat qurmaq kimi qüsurlu hərəkətləri barədə tənqidi paylaşım edib. O yazır:** "Prezident İlham Əliyev bu yaxınlarda Şuşada demişdi ki, Zəfər mövzusunu çox da istismar etmək olmaz və irəlidəki məsələlərə daha çox diqqət göstərməliyik. Sadə deyilmiş fikrin çox sadə də açmaları var. Prezident demək istədi ki, Zəfərin qədrini-qiymətini tam bilək, Zəfər Ali Baş Komandanın, ordunun və xalqımızın Zəfəridir, qazilərə və şəhid ailələrinə həssas olun, etdiklərinizi üzlərə vurmayın, Vətən üçün canını və övladını vermiş insanlara nə versək də azdır, lakin onları verdiklərimizin müqabilində əşağılamayaq, elə etməyək ki, verdiklərimizin, etdiklərimizin əvəzində onlardan hansısa təmənna güddüyümüzü düşünsünlər....

Bəs bir sıra namizədlər nə edir, bu sözlərdən hansısa dərsi götürürlərmi?

Seçki dairəsində qazinin, şəhid ailəsinin qapısını əlində bir şirniyyatla açır, bir fincan çayını içir, foto çəkdirir və sonra da bu məzmunsuz jesti "böyük xəbərə" çevirərək ictimailəşdirir. Ən pisi də odur ki, "qazi və ya şəhid ailəsi sentyabrın 1-də filankəsə səs verəcəyinə söz verdi" deyə öyünürlər. Ayıbdır, vallah...

Əvvəla, Prezidentin "Zəfər mövzusunu çox istismar etmək olmaz" fikrini unutmaq bu məqamda böyük qəbahətdir.

İkinci, təşviqata qədər bu həssas ailələrə gedib baş çəkmək daha doğrusu olmazdımı?

Üçüncü, seçki təşviqatı günlərində bu həssas insanların qapısını imza və ya səs üçün döymək onlara hörmətsizlik, duyğularını istismar etmək deyilmi?"

Televiziya aparıcısı Amil Xəlil də bu məsələ ilə bağlı bəzi namizədləri tənqid atəşinə tutub. "İndiyə kimi qapıların tanımırdınız, şəhid anaları indi yadınıza düşdü?", - deyə aparıcı qeyd edib.

**Deputatlığa namizəd, Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafa mövzu ilə bağlı bu cür şərh verib:** "Hesab edirəm ki, bu, doğru iraddır. Seçki kampaniyasında bu mövzuda hər hansı bir bu cür sui-istifadə davranışlarına yol verimrəm və verilməsinin də tərəfdarı deyiləm. Yeni şəhid və qazi ailələrini müəyyən dərəcədə sui-istismar edərək, onların adından, duyğularından özlərinin hansısa işlərinə yarayan formada istifadə etməklə onları incitmək doğru deyil. Hər kəs öz şəxsiyyəti, mövqeyi, sözü ilə cəmiyyətin qarşısına çıxmalıdır. Əsas obraz, fiqur deputatlığa namizədin özü olmalıdır. Sən özün kimsən və nə deyirsən, cəmiyyətə nəyi təmsil edirsən, nəyi etməyi özün üçün əsas prinsip olaraq qəbul edirsən - yəni seçki kampaniyası daha çox bunun üzərində aparılmalıdır. Amma indi taktikalar fərqlidir və başqalarını da buna görə qınamıram, qınamaq da doğru deyil. Lakin prinsip olaraq mən də Aydın Quliyevin yanaşmasını məqbul və doğru hesab edirəm".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



# Bölgəmiz yeni müharibəyə sürüklənir

## Baş verə biləcək qarşıdurmalara görə Ermənistan və onu silahlandıranlar birbaşa məsuliyyət daşıyacaqlar

**Avqustun 2 və 3-də ABŞ-ın Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından İrəvanın Zvartnos hava limanına iki hərbi təyyarə enib. Bu barədə məlumatı “Caliber.az” portalı yayıb və ardınca görüntüləri təqdim edib. Qeyd olunub ki, iki təyyarədən birində İran ərazisindən buraxılan raketlərin və başqa uçan aparatların trayektoriyalarını izləyən xüsusi qurğular olub. Bu zaman İran ərazisindən İsrailə mümkün hücum riski xüsusilə nəzərə alınıb. Gətirilən qurğular Ermənistanın İranla sərhədində yerləşdiriləcək. ABŞ bu cihazları idarə edəcək heyətin sayını 30-50 nəfərə çatdırıb.**

Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçilər diqqətlə seçilib - onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməniəsilli ABŞ vətəndaşlarıdır, həmçinin postsovet ölkələrindən ABŞ-a köçmüş slavyan və Qafqaz kökənli insanlardır. Şəxsi heyət Ermənistan Silahlı Qüvvələrinin hərbi geyimi ilə təchiz olunub və onun Zəngəzurdakı hərbi bazasında yerləşdirilib.

Qeyd edək ki, hərbi yük əsasən snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, xüsusi təyinatlılar üçün zirehli gödəkçələr, hücum mini-dronları, kiçik ölçülü minalardan və ABŞ ordusunda istifadə olunan digər döyüş sursatlarından ibarətdir.

Azərbaycan bu addımı “ABŞ-ın Ermənistanı silahlandırması” sayır və bunun region ölkələri üçün təhdid olduğunu bildirir. Düzdür, məsələ ilə bağlı sualı cavablandıran Ermənistandakı ABŞ səfirliyi bu ölkəyə hərbçilərin və hərbi yükün göndərilməsini ABŞ və Ermənistan arasında keçirilmiş hərbi təlimlə əlaqələndirməyə çalışıb.

“İyulun 24-də ABŞ və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "Qartal Tərəfdaş" təlimi uğurla başa çatıb. Biz təsdiq edə bilərik ki, bütün Amerika texnikası və şəxsi heyəti Ermənistanı tərk edib", - deyə məlumatda bildirilib.

Amma iyulun 24-də başa çatmış təlimin iştirakçılarının Ermənistana 9-10 gün sonra qayıdışı inandırıcı görünə bilməz və bu bir daha ondan xəbər verir ki, ABŞ Ermənistanı silahlandırmaqla regionda gərginliyin qalmasında maraqlıdır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev mövzu ilə bağlı Ayna.az-ın suallarını cavablandırarkən deyib ki, Cənubi Qafqaz əslində dünyadakı güc mübarizəsinin mərkəzi nöqtələrindən biri halına gəlib:** "Çünki Rusiya ilə Ukrayna arasında davam edən müharibə, digər tərəfdən Yaxın Şərqdə, İran ətrafında cərəyan edən hadisələr var. Biz uzun illər Ermənistanın Azərbaycan ərazilərini işğalda saxlamasına baxmayaraq, burada böyük münaqişələrdən yayınmağı bacardıq. Azərbaycan Cənubi Qafqazı böyük güclərin qarşı-qarşıya gəldiyi böyük platforma yox, əməkdaşlığın əlverişli olduğu region olaraq təqdim etməyi bacardı. Bunun nəticəsidir ki, biz həm enerji, həm nəqliyyat layihələrini reallaşdıra bildik. Azərbaycanın siyasi iradəsi, maddi imkanları bu layihələrin həyata keçməsinə şərait yaratdı. İndiyədək bunlar ciddi təhdid olmadan fəaliyyət göstərirlər. Həm enerji xətlərinin təhlükəsiz şəkildə fəaliyyətini davam etdirməsi, eyni zamanda Orta dəhlizə artan tələbat Cənubi Qafqaza diqqətləri daha da artırıb.

ABŞ-ın Ermənistanı silahlandırmasının bizi narahat edən səbəbi ondan ibarətdir ki, Ermənistan işğalçı dövlətdir. Əlbəttə, bütün dövlətlərin özlərini müdafiə etmələri üçün silahlanma hüququ var. Amma Ermənistan istisnadır. Çünki bu dövlət silahlanmada özünü müdafiə məqsədi güdmür, qonşu dövlətlərə hücum etməyi, işğalçılıq siyasəti həyata keçirməyi güdür. Bu gün Ermənistanın baş naziri Nikol Paşinyanı Qərb “demokrat” adlandırsa da, unutmayaq ki, İkinci Qarabağ müharibəsinin baş verməsinin səbəbi Paşinyan və onun hökumətinin addımları idi. Paşinyan “Qarabağ Ermənistandır və nöqtə” deməklə işğalçılıq siyasətinin davam edəcəyini bəyan etmiş oldu. Eyni zamanda Minsk Qrupu çərçivəsində danışıqlardan imtina etdi. Tovuz istiqamətində Ermənistan ordusu təxribat törətdi. Azərbaycan isə işğala son qoymaq üçün müharibədən başqa yol görmədi. Ona görə də işğalçı zehniyyətli bir dövlətin silahlandırılması Azərbaycan üçün təhdiddir. Onu da nəzərə almaq lazımdır ki, Ermənistanda hələ də revanşistlər var. Ermənistan hakimiyyəti məsələlərin diplomatik həllinə razılıq vermir, hər dəfə Azərbaycanın addımları ilə nələrdəsə məcburi razılığa imza atır.

Hesab edirəm ki, Ermənistanın silahlanmasını Azərbaycan haqlı olaraq özü üçün təhdid sayır, buna qarşı çıxır. Ona görə də sabah baş verə biləcək hansısa hadisəyə birbaşa Ermənistan və onu silahlandıranlar məsuliyyət daşıyacaqlar. Ermənistana indi verilən silahlarla sabah Azərbaycana, Azərbaycan əsgərinə atəş açılarsa, təbii ki, adekvat cavab veriləcək. Bu zaman onun məsuliyyətini öncə onu verənlər daşıyacaqlar. Biz aprelin 5-də Brüsseldə ABŞ-Avropa Birliyi-Ermənistan üçtərəfli görüşünə etiraz etdik, məsələni davamlı gündəmdə saxladıq ki, bu görüşün əsas məqsədi Ermənistanı silahlandırmaqdır. Onlar bunu inkar etsələr də, qapalı görüşdə müqavilə imzalandığı ortaya çıxdı. Hər dəfə bizi sakitləşdirmək istədilər, amma gördük ki, bizi aldadırlar, məqsəd Ermənistana iqtisadi yardım yox, hərbi yardım etməkdir. İndi ortaya çıxan görüntülərdən də aydın olur ki, Qərb Ermənistanı silahlandırır. Bu, regionda sabitliyin bərqərar olmasına əsas əngəldir".

**“Erməni mediası yazır ki, Yaxın Şərqdə və Ukraynadakı gərginlik Cənubi Qafqazda da yarana bilər. Bu ehtimal nə dərəcədədir” sualına politoloq belə cavab verib:** “Rusiya-Ukrayna müharibəsində də, İsrail-İran münaqişəsində də ABŞ tərəfdir. İndi isə ABŞ-ın Ermənistanı silahlandırması üzə çıxır. Amerikadan verilən açıqlamalardan görürük ki, Vaşinqton regionda nəqliyyat xətlərinin açılmasını istəyir, amma burada Rusiya, Çin və İranın bu xətlərin kənarında qalması şərtilə. Bu mövqe onu göstərir ki, ABŞ məsələyə geosiyasi güc mübarizəsi kontekstində baxır. Ermənistanın silahlandırılması da məhz bu aspektdəndir. Təəssüf ki, regionun digər ölkələrinin Ermənistanın silahlandırılmasına qarşı hansısa mövqeyini görmürük. Sanki Ermənistanın ABŞ tərəfindən silahlandırılması təkcə Azərbaycanı maraqlandırır. Halbuki regionun bütün ölkələri üçün Ermənistanın silahlandırılması təhdiddir. Məlumdur ki, Qərbin Ermənistana bu yardımlarında əsas məqsəd İrəvanı Moskvanın orbitindən uzaqlaşdırmaqdır. Deməli, hədəflərdən biri də Rusiyadır. Hesab edirəm ki, Rusiya da bu məsələdə kəskin mövqeyini ortaya qoymalıdır. Eyni zamanda İran mövqeyini bildirməlidir.

Əlbəttə, bu silahlanma, ABŞ-ın atdığı addımlar Cənubi Qafqazda da gərginliyin artması proqnozuna əsas verir. Biz Cənubi Qafqazın böyük güclərin qarşıdurma platforması olmasında maraqlı deyilik. Gürcüstanın son vaxtlar verdiyi qərarlar da onu göstərir ki, Tiflis də bunda maraqlı deyil. Burada əsas zəif halqa Ermənistandır. Ermənistan istəyərəkdən, yaxud istəməyərəkdən qarşıdurma platformasına çevrilir. Bu baxımdan, Yaxın Şərqdəki və Ukraynadakı münaqişənin Cənubi Qafqaza sıçraması ehtimalı var".

❑ **“Yeni Müsavat”**

## Ermənilər referendum üçün imza yığmağa başlayırlar



**Ermənistanın qərbyönlü qüvvələrindən yaradılan “Demokratik Qüvvələrin Platforması” yaxın günlərdə Avropa Birliyinə (AB) üzvlük məsələsinin referenduma çıxarılması tələbi ilə imzatoplama təşəbbüsünə başlayacaq.**

Teleqraf.com xəbər verir ki, bu barədə Ermənistanın “Hraparak” qəzeti yazır.

“Respublika”, “Respublika Naminə” və digər avropayönlü partiya, eləcə də QHT nümayəndələrinin iştirakı ilə formalaşan platforma bir neçə həftə əvvəl AB-yə üzvlüklə bağlı referendum üçün ümumxalq imzatoplamasının keçirilməsi təşəbbüsü barədə məlumat vermişdi. Artıq 200 mindən çox izləyicisi olan “Eurovote” Facebook qrupu ötən həftə fəaliyyətə başlayıb.

Platformaya daxil olan Tiqran Xzmalyan “Hraparak”a bildirib ki, hazırlıq işləri yekunlaşmaq üzrədir, yaxın günlərdə imzatoplamaya start veriləcək. Onun sözlərinə görə, ikinci mərhələdə ideyanı həyata keçirməyə, 300 min imza toplamağa çalışacaqlar ki, məsələ qanunun gücü ilə referenduma çıxarılsın.

Referendumla bağlı qanunda 45 gün nəzərdə tutulub, bu müddət ərzində 50 min imza toplanmalı, sonra bu imzaların qanuniliyi Mərkəzi Seçki Komissiyası tərəfindən yoxlanılmalıdır. Ardınca sənəd parlamentə göndərilməlidir, parlament də referendum təklifini ya qəbul, ya da rədd edəcək.

Platforma bundan əvvəl referendumun keçirilməsi təklifini parlamentə göndərmişdi, amma baş nazir Nikol Paşinyan onu dəstəkləyən qərbyönlü siyasi qüvvələrin təklifini rədd etmişdi. Baş nazir iyulun 1-də Ermənistanda belə bir referendum keçirməyəcəyini demişdi. Nəşrin fikrincə, əslində Paşinyan AB-yə üzvlükdən yanadır, sadəcə, bunun indiki məqamda əks nəticələr (Rusiya baxımından) doğura biləcəyini düşünərək təxirə salır. Artıq görünən budur ki, Paşinyan hökuməti məsələni bitirmək üçün zəmin yaratmağa çalışır.

Rusiya hökuməti bundan əvvəl dəfələrlə Ermənistana qərbyönlü siyasəti və AB-yə üzvlük məqsədlərinə görə sərt şəkildə etiraz və bunun mümkün nəticələri barədə xəbərdarlıq edib.

YENİ MÜSAVAT
N 145 (8518) 16 avqust 2024

# Fəxri adların təqaüdü



**Rəsmi hesabata əsasən, 2024-cü il iyulun 1-nə 180 nəfərə Vətən Müharibəsi Qəhrəmanı adına görə təqaüd (2000 manat), 177 nəfərə Azərbaycanın Milli Qəhrəmanı adına görə təqaüd (1800 manat) verilib. Təqaüdləri ya həmin adları daşıyan şəxslər, ya da onların dul arvadları və 18 yaşına çatmamış uşaqları alıb.**

"Xalq" fəxri adına görə təqaüd alanların sayı 253 nəfər, "Əməkdar" fəxri adına görə təqaüd alanların sayı 4560 nəfər göstərilir.

Xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı fəxri adları üçün aylıq təqaüdün məbləği 200 manatdır.

Əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar dövlət qulluqçusu, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 150 manat aylıq təqaüd müəyyən edilib.

# "Naxçıvan TV" yerüstü yayıma keçir




**Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) siyahısı genişlənib.**

Prezident İlham Əliyev bununla bağlı müvafiq fərman imzalayıb.

Fərmana əsasən, siyahıya aşağıdakı qurumlar əlavə edilib:

- "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "Naxçıvan TV" televiziya yayımçısı;
- "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "Naxçıvan Radiosu" radio yayımçısı".

# Bakıda 12 mindən çox şagirdin yerdəyişməsi edilib

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə 12 185 sorğu şagirdlərin yerdəyişməsi elektron xidməti (sy.edu.az) vasitəsilə tamamlanıb.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən verilən xəbərə görə, proses sy.edu.az sistemi üzərindən həyata keçirilir. Elektron sistem vasitəsilə şagird yerdəyişməsi valideynlərin rahatlığına, prosesin daha şəffaf və operativ həyata keçirilməsinə, əlavə vaxt itkisinin qarşısının alınmasına, ümumi tənzimlənmədə subyektiv amillərin aradan qaldırılmasına imkan verir.

Qeyd edək ki, 2024-2025-ci tədris ili üzrə 2-9 və 11-ci siniflər üçün şagird yerdəyişməsinə avqustun 8-dən start verilib. 10-cu siniflər üçün isə şagird yerdəyişməsi isə 15 avqust saat 15:00-dan aktivləşdirilib.

**Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib. Dövlət başçısı Olimpiya oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunmuş idmançılara və onların məşqçilərinə ordenləri təqdim edib.**



# Parisdə bayrağımızı qaldıranlara verilən yüksək qiymət

## Bu, gənc nəslin idmanla məşğul olması üçün çox mühüm motivasiyadır

İdmançılarla görüşündə İlham Əliyev çıxışı zamanı bildirib ki, Azərbaycan idmançıları bütün xalqı sevindirib. İdmançılarımız Paris Yay Olimpiya Oyunlarında ölkəmizi layaqətlə təmsil edib və Azərbaycan bayrağını ucaldıb:

"Olimpiya oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu yarışa xüsusilə hazırlaşır. Azərbaycan güclü idman dövlətidir. Bizim Olimpiya oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son yarışda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz son nəticədə dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal".

**Azərbaycan lideri vurğulayıb ki, idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır:** "Müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, bu, çox gözəl və tarixi nəticədir. Xüsusilə qızıl medallarımız ilk günlərdən qələbə sevincini xalqımıza bəxş etdilər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bunu bir daha təsdiq etdilər. Daha çox medal qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu olimpiyada bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir".

**Ölkə başçısı bildirib ki, növbəti Olimpiya oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq:** "Xüsusilə ölkəmiz üçün uğurlu Paris Yay Olimpiya Oyunlarından sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur. Gənclərin idmana maraqları artır. Həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq. Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı görülən işlərin bir məqsədi olub ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik. Nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər".

**Milli Məclisin altıncı çağırış deputatı olmuş Hikmət Babaoğlu "Yeni Müsavat"a deyib ki, Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınır. Parisdə keçirilən olimpiada da bir daha idmançılarımızın hansı potensiala sahib olduqları bilindi**: "Azərbaycan Prezidenti olimpiadadan qayıdan idmançılarımızı qəbul edərkən bu məsələyə toxundu. Yeni idman siyasəti Azərbaycanda ardıcıl və davamlıdır. İdmanın inkişaf dinamikası ölkəmizdə göz önündədir. Biz müstəqillik əldə etdikdən sonra Olimpiya oyunlarında əldə etdiyimiz medalların statistikasını müqayisə etsək, görəcəyik ki, ən son göstəricini daha da yaxşılaşdıra bildik. Əlbəttə, bu, böyük nailiyyətdir. Nəticə etibarı ilə Olimpiya oyunları idmançılar içərisində ən seçilmişlərin mübarizəsidir. Dünya sırasında 30-cu yeri əldə etmək olduqca böyük uğur və nailiyyətdir. Amma bu, sırf idman mübarizəsi kontekstində belədir. Məsələ ondadır ki, uğurlar, sadəcə, idman hadisəsi deyil. Azərbaycan gəncliyi üçün ən əhəmiyyətli məsələlərdən biri də budur. Azərbaycan bu gün bir olimpiya çempionu yetişdirirsə, deməli, o, minlərlə idmançının içərisindən seçilib. Geriyə baxdıqda biz burada geniş bir kütlə görəcəyik. Yeni olimpiadaya bir idmançı çıxarmaq yüzlərlə idmançının əməyinin nəticəsidir. Bu o deməkdir ki, Azərbaycanda idman kütləvidir. İndiki dövrdə ölkələr həm də səssiz müharibələrlə üz-üzədir. Narkotik ticarəti, pis vərdişlərlə, zərərli alışqanlıqlarla ölkənin gənclərini hədəf kimi seçirlər. Amma idman həm də onun zəmanətidir ki, gənclərimiz pis vərdişlərdən kənar qalırlar.

Ona görə də düşünürəm ki, Prezidentin olimpiaçılarla görüşməsi yeni və gənc nəslin idmanla məşğul olması üçün çox mühüm bir motivasiyadır. Ayrıca çempionlarımıza maddi vəsaitin verilməsi gənclərimizi idmanla məşğul olmağa həvəsləndirir. Azərbaycanda dövlətin və Prezidentin idman siyasəti belədir. Hər hansı bir idmançının maddi imkanları məhduddursa, nəticə əldə edən kimi dərhal bu, Azərbaycan dövləti tərəfindən olduqca yüksək qiymətləndirilir. Bu isə idmanın inkişafı üçün əlavə stimul yaradır".

**Yazıçı, jurnalist Aqil Abbas da dedi ki, dövlət idmanın inkişafı üçün hər cür şərait yaradıb:** "Onların qayğısına qalır. Hətta məişət işlərinə də kömək edir, ev verir. Milli Olimpiya Komitəsi, eyni zamanda Gənclər və İdman Nazirliyi idmanımızın inkişafı üçün əlindən gələni əsirgəmir. Sevindirici haldır ki, Parisdən əliboş gəlmədik. Bu, yüksək nailiyyətdir. Dövlət başçısı da idmançıları həmişə diqqət mərkəzində saxlayır. İdmançılarımızla görüş də buna bir sübutdur".




Qeyd edək ki, bir neçə gün əvvəl başa çatmış XXXIII Paris Yay Olimpiya Oyunlarında idmançılarımız ölkəmizi layaqətlə təmsil edərək 2 qızıl, 2 gümüş və 3 bürünc qazanıb. Ölkəmiz bu oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer alıb. Həmçinin olimpiadada iştirak edən və 57 dövlətin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Bu, yüksək nəticə kimi qiymətləndirilib.

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 145 (8518) 16 avqust 2024



## Benzinin qiyməti ilə bağlı yeni iddia

**Azərbaycan Bolqarıstandan Aİ-92 benzini idxalına başlayıb. İqtisadçıların fikrincə, idxala səbəb Rusiya Federasiyasından alınan Aİ-92 yanacağının azalmasıdır. Bu səbəbdən ölkəmiz alternativ ölkələrdən Aİ-92 yanacağını almalı olur.**

Aİ-92 yanacağının başqa bir ölkədən də idxalı yanacağın qiymətinin dəyişməsinə zəmin yarada bilər?

Məsələ ilə bağlı iqtisadçı-ekspert Akif Nəsirli "cebheinfo.az"a açıqlamasında xatırladıb ki, yanacağın qiyməti Tarif (Qiymət) Şurası tərəfindən müəyyənləşdirilir:

"Ölkəmizdə yanacağın qiyməti yaxın vaxtlarda qaldırıldı və yanacağın keyfiyyətinin artırılacağı bildirildi. Lakin yanacağın keyfiyyətinin artırılması avtomobil istifadəçilərinin üreyincə deyil. Çünki vətəndaşların gəlirləri onu düşünməyə imkan yaratmır. İstehlakçılara keyfiyyət deyil, kəmiyyət önəmli olur".

Onun sözlərinə görə, Azərbaycan neft ölkəsi olduğu üçün yanacaq idxalından asılı olmaya bilər: "Azərbaycan Aİ-92 yanacağı ilə yanaşı, Aİ-95 yanacağını da idxal edir. Lakin ölkəmizdə fəaliyyət göstərən Heydər Əliyev adına Neft Emalı Zavodu əsaslı təmir edilir. O zavod tam gücü ilə çalışarsa, ölkəmiz Bolqarıstandan nəinki yanacaq idxal edər, əksinə, 5 Bolqarıstan boyda ölkəni yanacaqla təmin edər. Hətta Aİ-95 yanacağını daxili bazarı təmin edəcək səviyyədə istehsal edə bilər".

Ekspert qeyd edib ki, ölkəmizdə yanacağın ucuzlaşması gözlənilə bilər: "Ölkəmizdə yanacağın qiyməti sərbəst bazar qiyməti ilə tənzimlənmədiyi üçün Tarif Şurası tərəfindən ucuzlaşdırıla bilər. Bunun üçün isə gərək müəyyən səbəblər olsun. Əgər dünya bazarında yanacağın qiymətində ucuzlaşma olarsa, o zaman oxşar hal ölkəmizdə də baş verə bilər. Lakin ümumilikdə götürsək, yanacağın qiymətinin ucuzlaşma gözlənilmir".

❑ **"Yeni Müsavat"**

# Manatın 32 "yaşı" oldu

## Azərbaycanın milli valyutasının tarixinə qısa baxış...

**Azərbaycanın milli valyutası - manatın dövriyyəyə buraxılmasından 32 il keçir.**

"Cebheinfo.az" xəbər verir ki, ötən əsrin sonunda müstəqillik əldə edən Azərbaycanda milli pul vahidinin yaradılmasının əsası o vaxtkı prezident Əbülfəz Elçibəyin 15 iyul 1992-ci il tarixli "Milli valyutanın dövriyyəyə buraxılması haqqında" fərmanı ilə qoyulub.

1992-ci il avqustun 15-də 1, 10 və 250 manatlıq əsginaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginaslar, 1993-cü ilin martında isə 50, 100, 500 və 1 000 manatlıq əsginaslar dövriyyəyə buraxılıb. Azərbaycanın ilk pulları Fransa Mərkəzi Bankında hazırlanıb.1992-ci ilin avqustundan 1994-cü ilin yanvarına qədər Azərbaycan ərazisində 1 manat 10 rubla bərabər olub, yəni hər iki valyutadan istifadə edilib. Prezident Heydər Əliyevin 11 dekabr 1993-cü il tarixli "Milli valyutanın respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" fərmanından sonra Azərbaycan rubl zonasından çıxıb. Bununla da Milli Bank müstəqil pul və məzənnə siyasəti həyata keçirməyə başlayıb.



Bununla belə, o vaxt çətin iqtisadi şərait çərçivəsində milli valyutanın məzənnəsini sabit saxlamaq mümkün deyildi. Manat digər xarici valyutalara nisbətdə sürətlə ucuzlaşırdı. Əgər 1994-cü ilin əvvəlində Azərbaycanda 1 ABŞ dolları 118 manata bərabər idisə, bir il sonra bu nisbət 4 182 manata qalxıb. Bu isə dövriyyəyə daha böyük nominallı əsginasların buraxılması hesabına baş verirdi. Belə ki, Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə Almaniyanın "Giesecke & Devrient" şirkətinin dəstəyi ilə 10 000 manatlıq, 1996-cı ildə isə İngiltərənin "De La Rue" şirkətinin dəstəyi ilə 50 000 manatlıq əsginaslar çap edilərək dövriyyəyə buraxılıb. Sonuncu həm də 2001-ci ildə 1 000 manatlıq əsginasın yeni dizaynda hazırlanmasını həyata keçirib.

Ümumilikdə, Milli Bank tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində təxminən 5,239 trln. manatlıq 692,5 mln. ədəd əsginas istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən çıxarılıb.

2005-ci il fevralın 7-də Prezident İlham Əliyev "Pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" fərman imzalayıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən Azərbaycan ərazisində yeni manatdan istifadə edilməsinə başlanıb. Bu zaman 1 yeni manat 5 000 köhnə manata bərabər tutulub və bir il hər iki pul qüvvədə olub. 2007-ci il yanvarın 1-dən isə tamamilə yeni manata keçilib. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100, 200 ekvivalentində olan əsginaslardan və 1, 3, 5, 10, 20, 50 qəpik metal pul nişanlarından ibarətdir. Yeni manatın dizaynı ilə bağı müsabiqənin qalibi Avstriyanın "OeBS" şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanları isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

Uzun illər Cənubi Qafqazın ən güclü və sabit valyutası olan Azərbaycan manatı 2015-ci il fevralın 21-də, 20 illik fasilədən sonra ilk kəskin məzənnə dəyişikliyinə məruz qalıb. Azərbaycan Mərkəzi Bankı milli valyutanın 34% ucuzlaşdırılmasına qərar verib. Buna səbəb isə 1990-cı illərin sonundan manata dəyər qazandıran neftin dünya bazarında kəskin ucuzlaşması olub. Son nəticədə dolların rəsmi məzənnəsi 0,78 AZN/USD-dən 1,05 AZN/USD-yə qədər artırılıb.

Bununla belə, neftin getdikcə ucuzlaşması və ölkəyə daxil olan dollar kütləsinin azalması fonunda yeni məzənnənin uzun müddət saxlamaq mümkün olmayıb. 2015-ci il dekabrın 21-də Mərkəzi Bank vəziyyətdən çıxış yolu kimi manatı "üzən məzənnə" rejiminə keçirib. Bundan sonra ölkədə rəsmi məzənnə 1,55 AZN/USD-yə bərabər olub. Amma yeni vəziyyətdə manatın məzənnəsini ona tələbatın hansı səviyyədə olması müəyyən etdiyindən dolların və digər xarici valyutaların milli valyutaya nəzərən qiyməti mütəmadi olaraq dəyişib.

Məsələn, 2017-ci il fevralın 1-2-də 1 dollar 1,92 manata bərabər olub ki, bu da "üzən məzənnə" rejiminə keçilməsindən bəri ən yüksək həddir. 2016-cı il mayın 25-26-da isə dolların qiyməti minimum həddə - 1,49 AZN/USD-yə düşüb. Bu günə olan rəsmi məzənnə isə 1,700AZN/USD-yə bərabərdir və bu göstərici 2018-ci il martın 7-dən bəri dəyişməyib.

❑ **"Yeni Müsavat"**

# Tikinti materiallarının ucuzlaşması payıza qaldı

## Bahalaşma fərdi yaşayış evlərinin satış qiymətinə də təsir edib



**"Məlum olduğu kimi, hazırda işğaldan azad edilən ərazilərdə sürətli şəkildə tikinti-bərpa işləri aparılır. Bu da ölkədə tikinti materiallarına tələbatı artırıb. Həmçinin yanacağın qiymətinin artması birbaşa daşınma xərclərini yüksəldib və nəticədə bir sıra inşaat materialları bahalaşıb". Bunu inşaat materiallarının bahalaşmasına münasibət bildirərkən əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev Bakupost.az-a deyib.**

Onun sözlərinə görə, demək olar ki, hər yay fərdi yaşayış evlərinin tikintisinə tələbat artır: "Çünki yay ayları inşaat prosesinin daha sürətlə aparılması üçün əlverişlidir. Tikinti işləri artdıqca inşaat materiallarına tələbat da artır. Tələbat çoxaldıqca tikinti materialları bazarında çatışmazlıq yaranır və bu da nəticədə qiymətlərə öz təsirini göstərir".

**Ekspert bildirib ki, sementin, mişar daşının və digər materialların bahalaşması birbaşa tikintinin maya dəyərinə təsir edən amillərdəndir:** "Tikinti materiallarının bahalaşması birmənalı olaraq fərdi yaşayış evlərinin satış qiymətinə təsir edir. Nəticədə ucuz evlərin də qiyməti bahalaşır".

**İqtisadçı-ekspert Asif İbrahimov isə deyir ki, tikinti bazarındakı bahalığın səbəbi idxal və istehsal zamanı çəkilən xərclərin artımı ilə bağlıdır:** "Hər hansı bir xidmətin yekun qiyməti onun ərsəyə gəlməsi zamanı çəkilən xərclərin miqdarından asılıdır. Həmin məhsulun realizə edilməsi üçün çəkilən xərclər çoxdursa, deməli, yekun qiymət də ona uyğun olaraq yüksək olur. Son dövrlərdə həm daxili, həm də xarici faktorlara əsasən, qiymətlərdə oynamalar müşahidə olunur. İstehsal olunan inşaat materialı yerli məhsuldursa, təbii ki, onların hamısının xammalı Azərbaycanda əldə olunmur. Kənardan idxal olunur. İdxal zamanı da qiymətlərdə müəyyən artım müşahidə olunur. Onun daşınmasına, saxlanmasına xeyli xərclər çəkilir".

Ekspertin fikrincə, daşınmalar zamanı çəkilən xərclərin qiyməti azalarsa, bu, tikinti materiallarının qiymətinə də təsir edər.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 145 (8548) 16 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi**



# Suyun qabağını kəsən "əjdahalar"...

## Azərbaycanda da su ehtiyatları sürətlə azalır, çünki...

**Xəbər verdiyimiz kimi, bir neçə gün Bakı şəhəri Nəsimi və Yasamal rayonlarında sakinlər su üzünə həsrət qalıblar. Günün yalnız səhər saatlarında qısa vaxt ərzində içməli su verilib. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən (İŞBSTX) bildirilib ki, sözügedən rayonlarda suyun fasilələrlə təmini Oğuz-Qəbələ su xəttində aparılan təmir-bərpa işləri ilə bağlıdır. Təmir işləri artıq başa çatıb və bu gündən suyun verilişi tam bərpa olunmalıdır.**

Əslində paytaxtda da, regionlarda da ciddi su problemi yeni deyil. İnsanlar içməli suyu əsasən marketlərdən alır. Bəzən bir ailənin bir aylıq içməli su məsrəfi 100 manatı ötür. Ümumən isə bu gün dünyada təxminən iki milyard insanın təhlükəsiz içməli suya çıxışı yoxdur və dünya əhalisinin yarısı ilin ən azı bir dövründə ciddi su qıtlığı yaşayır. Yerdəki suyun yalnız 0.5%-i istifadəyə yararlı və mövcud şirin sudur və iqlim dəyişikliyi bu amilə təhlükəli şəkildə təsir edir. Son 20 ildə torpaq nəmi, qar və buz da daxil olmaqla yerüstü su ehtiyatı ildə bir sm-ə qədər azalıb və bu vəziyyət su təhlükəsizliyi baxımdan önəmli nəticələr doğurur.

Ümumdünya Resurslar İnstitutunun məlumatına görə, 36 ölkə artıq su stresi şəraitində yaşayır. Bu o deməkdir ki, yaşayış məntəqələri, sənaye və təsərrüfatlar tərəfindən tələb olunan su mövcud ehtiyatları tam istifadə edir.

Su böhranı illərdir ki, Dünya İqtisadi Forumunun Qlobal Risklər siyahısında ilk beşliyə daxil edilir.

Hollandiyanın Tvente Universitetinin alimləri Yer kürəsinin içməli suyun çatışmazlığından əziyyət çəkən əhalisini qiymətləndiriblər. Müəlliflər tədqiqatlarının nəticələrini "Science Advances" jurnalında dərc ediblər. İçməli suyun çatışmazlığından əziyyət çəkən insanların yarısı Hindistan və Çində, digərləri isə Avstraliya, Banqladeş, Pakistan, Meksika və ABŞ-ın cənub-qərbində (Kaliforniya, Texas və Florida ştatları). Rusiya, Braziliya və Kanada, həmçinin Mərkəzi və Şərqi Avropa su qıtlığından əziyyət çəkmirlər. Ümumilikdə su çatışmazlığı ilə hər il dünya əhalisinin 2/3-si (təxminən 4 milyard insan) üzləşir.

Azərbaycanın yerüstü su ehtiyatları 30 milyard kubmetrdir ki, bunun da 30 %-i respublikada formalaşır, 70 %-i isə qonşu ölkələrdən daxil olur. Son illər baş verən iqlim dəyişiklikləri səbəbindən respublikamızda yerüstü su ehtiyatları kəskin azalıb, 2022-ci ildə cəmi 17 milyard kubmetr təşkil edib. Təkcə Azərbaycanda yox, Türkiyə, Ermənistan, Gürcüstan və İranda atmosfer yağıntılarının paralel olaraq azalması baş verir. Buna görə də su ehtiyatlarımız həm transsərhəd, həm də yerli miqyasda azalmağa doğru gedir. Quraqlıq illərində su ehtiyatlarının azalması, daxili çayların su axınının əsas sərfinin yaz mövsümünə düşməsi və onların əksəriyyətinin axınının tənzimlənməməsi nəticəsində daşqın sularından tam istifadə olunmadan dənizə axması əkin sahələrinin suvarma suyu ilə təmin olunmasını çətinləşdirir.

Azərbaycan əhalinin sayına və əraziyə nisbətdə su ehtiyatlarının az olduğu ölkələrdəndir. Adambaşına düşən və ərazinin hər kv kilometrinə düşən su ehtiyatına görə Cənubi Qafqazda ən çətin vəziyyət bizdədir. Azərbaycanda ümumi su ehtiyatı 31, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir. Yerli su ehtiyatlarına gəlincə, ölkəmizdə 10.3, Gürcüstanda 53.6, Ermənistanda 6.5 kubkilometr yerli su ehtiyatı var ki, bunun bir il ərzində hər bir nəfərə düşən hissəsi Azərbaycanda 1.03, Gürcüstanda 13.7, Ermənistanda isə 2.2 min kubmetrdir. Ölkəmizin hər kvadrat kilometrinə 119 min kubmetr yerli su ehtiyatı düşür. Gürcüstanda bu rəqəm 769 min, Ermənistanda isə 218 min kubmetrdir.

Azərbaycanın su mənbələrinin təxminən 70 faizinin ölkə sərhədlərindən kənarda formalaşır. Qlobal quraqlıq və su problemi kəskinləşəndə ölkə xaricindən gələn su mənbələrindən su götürmək mümkün olmaya bilər. Bu vəziyyətdə qonşu ölkələr transsərhəd çaylardakı su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Gürcüstan Kürün, Ermənistan Arazın, Rusiya Samurun bütün suyunu özlərinə sərf edəcək. Digər kiçik çayların çoxunun da mənbəyi qonşu ölkələrdədir. Bu, çox ciddi strateji təhlükədir.

Ona görə də su resurslarının qorunması, onlardan səmərəli istifadə, su mənbələrinin çirklənməsinə və qurumasına səbəb olan amillərin aradan qaldırılmasına ehtiyac böyükdür və bu məsələni təkcə inzibati metodlarla tənzimləmək mümkün deyil. Əhalinin bu işdə iştirakı da son dərəcə vacibdir.

Su böhranları artıq illərdir ki, Dünya İqtisadi Forumunun Qlobal Risklər siyahısında ilk beşliyə daxil edilir.

Bəzi ölkələrdə bu vəziyyət silahlı münaqişələrə səbəb olub. Bunun misalı kimi 2021-ci ildə Qırğızıstanla Tacikistan arasındakı sərhəd toqquşmalarını göstərmək olar. Eyni su problemi Özbəkistan və Tacikistan arasında da mövcuddur. Afrika ən böyük su münaqişələri görən regionlardandır. Efiopiyanın ərazisindən axan Nil çayının üzərində tikilən yeni bənd bu ölkənin Misir və Sudanla əlaqələrini kəskin şəkildə korlayıb. Hər iki ölkənin narazılığı "Nilin keşikçiləri" adlı birgə hərbi təlimlərlə nümayiş olunub.

Sudana gəldikdə isə su resursları uğrunda aparılan və yüz minlərlə insanın ölümünə səbəb olan qanlı münaqişə ölkənin parçalanması ilə nəticələnib. Hindistanın Şimal düzənlikləri dünyanın ən məhsuldar əkinçilik sahələrindən biridir, lakin bölgə Çindən aldığı suya möhtacdır və onun qıtlığı müntəzəm sərhəddəki mübahisələrə səbəb olur. 3 il əvvəl Qalvan vadisində baş verən toqquşmada 20 hindistanlı həlak olmuşdu.

BMT-nin saytında su çatışmazlığının mümkün həlli yolları sadalanır. Onlar arasında bəndlər və su anbarları, yağış sularının yığılması, su kəmərləri, ərazidə aparılan duzsuzlaşdırma işləri qeyd olunur. Bura həmçinin suyun təkrar istifadəsi və qorunması daxildir.

Baham adaları, Maldiv adaları və Malta kimi bir sıra ölkələr bütün su ehtiyaclarını duzsuzlaşdırma prosesi vasitəsilə qarşılayır. Səudiyyə Ərəbistanı bu yolla (34 milyon əhalisi) içməli suyun təxminən 50 faizini əldə edir, BMT-nin Ətraf Mühit Proqramı (UNEP) bildirir.



Dünya Bankının saytındakı Azərbaycan barədə məqalədə deyilir ki, hökumət suvarma kanallarından tutmuş bəndlərə, su təchizatı obyektlərinə qədər mühüm infrastruktura 3 milyard dollardan çox sərmayə qoyub.

Son iyirmi ildə 50-dən çox şəhərdə böyük investisiya proqramı vasitəsilə su təchizatına çıxış artıb, ötən il dərc olunan yazıda deyilir.

"Lakin bu xidmətlərin keyfiyyəti qeyri-standart aktivlərin idarə edilməsi, zəif korporativ idarəetmə, qeyri-kafi əməliyyat kimi problemlərdən əziyyət çəkir", - Dünya Bankının saytındakı məqalədə deyilir.

Bu arada Dünya Bankı və Asiya Bankının ötən ilki proqnozlarına görə qarşıdan gələn illər ərzində Azərbaycanda havanın orta temperaturu qlobal göstəricilərdən daha sürətlə yüksələcək.

Bu amil o cümlədən kənd təsərrüfatında məhsuldarlığı azalda, səhralaşma və torpağın şoranlaşması problemlərini kəskinləşdirə, suvarma tələbini artıraraq ölkənin su təchizatına daha çox təzyiq göstərə bilər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

Yeni MÜSAVAT
N 145 (8548) 16 avqust 2024

# Kənd təsərrüfatında artım sürəti azalıb - iqlim dəyişikliyinin təsiri...

## Builki sel və yağıntılar təsərrüfatlar üçün həddən artıq böyük zərər yaradıb

**Azərbaycanda qeyri-neft iqtisadiyyatının əsas prioritetlərindən olan kənd təsərrüfatında artım sürəti ciddi şəkildə azalıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin yanvar-iyul aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7 milyard 508,2 milyon manat təşkil edib. Bunun 3 milyard 671,4 milyon manatı heyvandarlıq, 3 milyard 836,8 milyon manatı bitkiçilik məhsullarının payına düşür.**

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 0,8 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,5 faiz, bitkiçilik məhsulları üzrə 0,2 faiz artıb. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə kənd təsərrüfatı istehsalı illik ifadədə 3,3 faiz, o cümlədən heyvandarlıqda 3,4 faiz, bitkiçilikdə 3,3 faiz artmışdı.

Rəsmi statistikaya əsasən, cari ilin məhsulu üçün 1025,0 min hektar sahədə (ötən il 958,9 min ha) əkilmiş dənli və dənli paxlalı bitkilərin 550,7 min hektarını (53,7 faiz) buğda (ötən il 552,1 min ha), 420,7 min hektarını (41,0 faiz) arpa(357,5 min ha), 29,3 min hektarını (2,9 faiz) qarğıdalı(28,9 min ha), 14,2 min hektarını (1,4 faiz) paxlalı bitkilər(11,9 min ha), 10,1 min hektarını (1,0 faiz) isə digər dənli bitkilərin əkin sahələri təşkil edib.

2024-cü il avqust ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 2935,5 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,2 faiz çox dənli və dənli paxlalı bitkilər, 1245,7 min ton (0,2 faiz çox) tərəvəz, 598,6 min ton (10,0 faiz az) kartof, 429,0 min ton (10,3 faiz çox) bostan məhsulları, 331,1 min ton (5,1 faiz çox) meyvə və giləmeyvə, 22,0 min ton (2,4 dəfə çox) şəkər çuğunduru, 5,8 min ton (28,2 faiz az) üzüm, 1,8 min ton (35,9 faiz az) günəbaxan, 1,8 min ton (2,2 faiz çox) tütün, 773,4 ton (7,8 faiz çox) yaşıl çay yarpağı yığılıb.

Heyvandarlığa gəlincə, 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycanda quş əti də daxil olmaqla diri çəkidə 331,2 min ton ət, 1312,0 min ton süd, 1385,9 milyon ədəd yumurta, 14,2 min ton yun, 239,4 ton barama istehsal olunub. 2023-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz artıb, yun istehsalı 1,6 faiz, barama istehsalı 32,9 faiz azalıb.

Dənli və paxlalı bitkilər üzrə ümumi məhsul istehsalında artım olsa da, əsas strateji məhsul olan buğdanın istehsalında ciddi azalma var. Dövlət Komitəsinin avqust ayının 13-nə olan operativ məlumatına əsasən, payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 995,7 min hektar sahənin 979,3 min hektarı və yaxud 98,3 faizi biçilərək məhsulu yığılıb. Sahələrdən 2937,3 min ton məhsul toplanıb, məhsuldarlıq 30,0 sentnerə bərabər olub. Məhsulun 1680,3 min tonunu və yaxud 57,2 faizini buğda, 1227,4 min tonunu (41,8 faizini) arpa, 29,6 min tonunu (1,0 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil edib.

Ən yüksək məhsuldarlıq Hacıqabul (1 hektardan 51,4 sentner), Ağcabədi (müvafiq olaraq 44,4), Sabirabad (43,4), Salyan (42,0), Bərdə (41,6), Ağdam (41,5), Saatlı (41,0), İmişli (39,6), Samux (37,6), Zaqatala (36,1) və Beyləqan (35,9) rayonlarında olub. Dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsullarının digər rayonlara nisbətən daha çox istehsalı Cəlilabad (224,7 min ton), Şəki (152,7 min ton), Ağcabədi (144,9 min ton), Füzuli (130,7 min ton), Kürdəmir (125,2 min ton), Ağsu (108,2 min ton), Hacıqabul (106,2 min ton) və İsmayıllı (97,0 min ton) rayonlarında müşahidə edilib.

Ötən ilin eyni dövründə sahələrdən 2915,3 min ton dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsulu toplanmış, məhsuldarlıq 32,0 sentnerə bərabər olmuşdu. Məhsulun 1828,6 min tonunu və yaxud 62,7 faizini buğda, 1064,1 min tonunu (36,5 faizini) arpa, 22,6 min tonunu (0,8 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil etmişdi. Göründüyü kimi, dövlətin xüsusi dəstək verdiyi əsas strateji məhsul olan buğdanın istehsalı ötən illə müqayisədə 147,7 min ton və ya 8 faizə yaxın azalıb. Bu azalma həm əkin sahələrinin kiçilməsi, həm də məhsuldarlığın aşağı düşməsi nəticəsində qeydə alınıb. Belə ki, ötən il dənli və dənli-paxlalı bitkilər üzrə orta məhsuldarlıq 32 sentner olmuşdusa, bu il göstərici 30 sentnerə qədər azalıb.

Dövlət Statistika Komitəsinin izahat qeydindən aydın olur ki, keçən ilin payızında dən və yaşıl yem üçün əkilmiş 1026,3 min hektar sahədən 961,7 min hektar payızlıq dənli bitkilərin sahəsi cari ilin yaz əkini dövrünün sonunadək salamat qalıb. Bu, ümumi dənli və dənli paxlalı bitkilərin əkin sahəsinin 93,8 faizinə bərabərdir. 53,0 min hektar sahədə əkilmiş payızlıq dənli bitkilər tamamilə məhv olub, 6,4 min hektar sahə yem üçün istifadə edildikdən sonra yerində yazlıq bitkilər əkilib, payızlıq dənli bitkilərin 5,2 min hektar sahəsi isə yem üçün saxlanılıb. Ötən il 178,3 min hektar sahədə əkilmiş payızlıq dənli bitkilər tamamilə məhv olub, 6,0 min hektar sahə yem üçün istifadə edildikdən sonra yerində yazlıq bitkilər əkilib, payızlıq dənli bitkilərin 2,7 min hektar sahəsi isə yem üçün saxlanılmışdı.

**İqtisadçı-ekspert Rövşən Ağayevin fikrincə, aqrar sahədə artımın zəifləməsi qlobal iqlim dəyişikliyinin bu sahəyə mənfi təsirindən qaynaqlanır:** “Nəzərə almaq lazımdır ki, aqrar sahədə durğunluq və geriləmə işğaldan azad edilmiş ərazilər hesabına on minlərlə hektar sahənin fəal dövriyyəyə cəlb edildiyi dövrdə baş verir. İqlim dəyişikliklərinin sahəyə təsiri aşkar hiss edilir. İntensiv yağıntılar, sel və dolu kütləvi şəkildə əkinləri və məhsulları məhv edib. Builki sel və yağıntılar təsərrüfatlar üçün həddən artıq böyük zərər yaradıb. Amma ölkədə səmərəli və yüksək elmi potensiala əsaslanan aqrar idarəçilik də qurmaq mümkün olmayıb. Aqrar sektor Azərbaycan üçün son dərəcə həssas sahədir - təkcə ərzaq təhlükəsizliyi baxımından yox. Ölkə əhalisinin ən azı üçdə birinin gəlirləri və məşğulluğu bu sahəyə bağlıdır”.



Onu da qeyd edək ki, dövlət aqrar sahəyə təbii fəlakətlərin vurduğu zərərin qarşılanmasında təsərrüfatlara dəstək vermək üçün aqrar sığorta mexanizmini işə salıb. Aqrar Sığorta Fondunun 2024-cü ilin 1-ci yarım illiyinin nəticələri üzrə açıqladığı rəqəmlərə əsasən, cari ilin yanvar-iyun aylarında ölkədə 384 min hektar əkin sahəsi sığortalanıb.

Sığortalı sahələrdə artım bütün bitkilər üzrə qeydə alınıb. Belə ki, sığortalanan pambıq sahələri 2,3 dəfə, çəltik əkinləri 2,2 dəfə, nar bağları 4,5 dəfə, arpa sahələri təqribən 2 dəfə, buğda sahələri 1,3 dəfə artıb.

Fond bildirir ki, 2024-cü ilin yanvar-iyun aylarında 11 milyon 183 min manat aqrar sığorta haqları toplanıb. Bu vəsaitdən 10 milyon 189 min manatı bitkiçilik sığortası üzrə ödənilib və əkin sahələrinə ümumilikdə 418 milyon manat sığorta təminatı verilib. Ümumilikdə sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 430 milyon milyon manata yaxın olub.

Aqrar Sığorta Fondunun açıqladığı məlumatlardan aydın olur ki, bu il təbiət hadisələrinin zərərləri ilə bağlı sığorta hadisələrinə dair müraciətlər xeyli artıb. Aprel-iyun ayları ərzində belə müraciətlərin sayı 1500-ə yaxınlaşıb. Onların yarıdan çoxu taxıl məhsulları olan arpa, buğda sahələrinə dəyən zərərlə bağlı olub.

Fondun digər məlumatına görə, 2024-cü ilin yanvar-iyun aylarında müxtəlif hadisələr nəticəsində zərərlə üzləşmiş sığortalı fermerlərə 2 milyon 864 min manat sığorta ödənişi edilib. Sığorta ödənişlərinin 2 milyon 243 min manatı bitkiçilik, 621 min manatı isə heyvandarlıq sığortası üzrə edilib.

2024-cü ilin 2-ci rübündə ən çox sığorta ödənişləri fırtına, dolu və subasma hadisələri üzrə həyata keçirilib.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# Aqrar Xidmətlər Agentliyində yeni təyinat

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyində yeni təyinat olub. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin layihə meneceri Elməddin Namazov AXA sədrinin müavini təyin edilib. O bu vəzifədə keçmiş sədr müavini Eldar Həsənovu əvəzləyib.**

Qeyd edək ki, E.Namazov aqrar sahədə 15 ilə yaxın iş təcrübəsinə malikdir. Azərbaycan Dövlət Aqrar Universitetində karyerasına professor köməkçisi, müəllim kimi başlayan Elməddin Namazov Dünya Bankı, FAO, GİZ kimi beynəlxalq təşkilatların layihələrində kənd təsərrüfatı mütəxəssisi kimi fəaliyyətini davam etdirib. 4 il Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətində (GİZ) Kənd Təsərrüfatı Layihə rəhbəri, 3 il Avropa İttifaqının Azərbaycan ofisində Layihə meneceri və kənd təsərrüfatı üzrə ekspert vəzifələrində çalışıb.

# Bu nazirliyin səlahiyyətləri artırıldı

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilib.**

Sənədlə nazirliyin vəzifələri sırasına aşağıdakılar əlavə edilib:

- tabeliyində olan qurum vasitəsilə yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək, həmçinin aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək;
- Bakı şəhərinin inzibati ərazisində parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarəti təmin etmək;
- yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy verilməsini təmin etmək;
- avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, metro çıxışlarının, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy verilməsini təmin etmək".

YENİ MÜSAVAT
Son səhifə
N 145 (8518) 16 avqust 2024

Avqust

## Bunları bilirsinizmi?

* İnsanın nazik bağırsağı sağlığında 2.5 metr uzunluqda olur. Ölümündən sonra bağırsağın divarının əzələləri boşaldığından onun uzunluğu 6 metrə çatır.
* İnsanda təqribi 2 milyon tər vəzi mövcuddur. Orta yaşlı adam hər litr tər tökdükdə 54% kalori itirir. Kişilər qadınlara nisbətən 40% çox tərləyirlər.
* İnsanın sağ ağciyəri sol ağciyərinə nisbətən özünə daha çox hava yerləşdirir.
* İnsan gözü 10 000 000 rəng çeşidi fərqləndirməyə qadirdir.
* İnsan ağzında 40 000 bakteriya mövcuddur.
* Papafobiya-Roma papasından qorxmaqdır.
* Açıq gözlə asqırmaq mümkün deyil.
* İnsan orqanizmində 2000-ə yaxın dad bilmə reseptoru var.
* İnsan orqanizmində olan piylər 7 ədəd sabun istehsalı üçün lazım olan miqdardadır.
* İnsan bədənində nerv impulsları saniyədə 90 metr sürətlə hərəkət edirlər.
* İl ərzində insan ürəyinin döyüntülərinin sayı 36 800 000-dir.
* Kişilər qadınlara nisbətən 10 dəfə çox daltonizmdən əziyyət çəkirlər.
* Uşaq doğulanda bədənində 300 sümük olur, böyüdükcə onlardan 206 qalır.
* İnsan sümüylərinin təqribi yarısı bilək və pəncədə yerləşir.
* Mavi gözlü insanlar digərlərinə nisbətən ağrıya daha həssasdırlar.
* Əl barmaqların dırnaqları ayaq barmaqların dırnaqları ilə müqayisədə 4 dəfə tez böyüyür.
* Ömür boyu insan dərisi 1000 dəfə dəyişir.
* Güclü işıq nəticəsində görmə qabiliyyəti itirmə halına "qar korluğu" deyilir.
* Qripə səbəb olan 100 müxtəlif virus övcuddur.

## Bəd əlamət: Meksikada minillik piramida çökdü

**Meksikada qədim piramidanın uçması yerli qəbilələrin qorxusuna səbəb olub. Aborigenlər bunun "pis əlamət" olduğunu bildiriblər. Bu barədə "MİR 24" məlumat yayıb. 1100 illik kərpic piramida Meksikanın Miçoakan əyalətindəki İxuatsio arxeoloji zonasında, Patskuaro gölünün şərq sahilində yerləşir. Eramızın 900-cü ilindən İspan fatehləri 1530-cu ildə buraya gələnə qədər ərazi Purepeça İmperiyasının hakimiyyəti altında olub.**

Qeyd olunur ki, güclü tufandan sonra piramidanın divarlarından biri uçub. Abidə Meksika Milli Antropologiya və Tarix İnstitutunun (INAH) alimləri tərəfindən araşdırılıb. Onlar çökməni hava şəraiti ilə əlaqələndiriblər. Həddindən artıq isti və quraqlıq qədim tikilidə çatların əmələ gəlməsinə səbəb olub. Sonra göl hövzəsində leysan yağışları yağıb, binada rütubət yaranıb. Hələ də də bu torpaqlarda yaşayan Purepeça qəbiləsinin nümayəndələri bu hadisənin "tanrıların qəzəbinə" dəlalət etdiyini və yaxınlaşan fəlakətdən xəbər verdiyini bildiriblər. Onların fikrincə, konkistadorlar gəlməmişdən əvvəl də oxşar hadisə baş verib. Arxeoloqlar piramidaların qorunması və bərpası üçün addımlar atacaqlarını bildiriblər. INAH-dan bildiriblər ki, təkcə zədələnmiş hissədə deyil, bütün binada təmir işləri aparılacaq.

Qeyd edək ki, bir neçə gün sonra Yuta ştatında Yura dövrünə aid qoşa tağ çöküb. 190 milyon illik geoloji struktur turistlər arasında çox məşhur idi. Onun dağılmasının səbəbi hələlik məlum deyil - güman ki, süxurlar erroziyaya məruz qalıb.

# Enerji içkisinin fəsadları: Rusiyada məktəblinin üzü əyildi və bədəninin yarısı iflic oldu



**Uralda (Rusiya) həkimlər iki banka enerji içkisi içdikdən sonra insultqabağı vəziyyətdə olan 12 yaşlı uşağı xilas ediblər. Bu barədə "RIA Novosti" məlumat yayıb. Qeyd olunub ki, uşaq bir neçə gecə yata bilməyib, sonra onda şiddətli başağrısı başlayıb, sifəti əyilib, bədəninin yarısı keyiyib. Ona insultqabağı vəziyyət diaqnozu qoyulub.**

Həkimlər qeyd ediblər yıqlığı sayəsində uşağa ki, valideynlərinin ayıq-sa- vaxtında köməklik göstərmək mümkün olub. Şagird artıq evə qayıdıb və ailəsinə bir daha enerji içkiləri içməyəcəyinə söz verib. Həkimlər bildiriblər ki, uşaqların sinir sistemi hələ belə içkiləri içmək üçün kifayət qədər güclü deyil, ona görə də onların təsiri gözlənilməz ola bilər.

## 104 yaşlı britaniyalı qadından uzunömürlülüyünün sirri ilə bağlı maraqlı açıqlama: "Şərab və cin"



**Britaniyanın Nortuiç şəhərinin sakini olan Dorin Menninq adlı qadın 104 yaşını qeyd edib. Dorin Menninq gəncliyində tikiş ustası olaraq çalışıb. Dörd nəvəsi və üç nəticəsi olan qadın hazırda qocalar evində yaşayır, amma yenə də tikiş işləri ilə məşğul olmağı sevir. Onun digər hobbisi isə gül buketləri hazırlamaqdır. Qocalar evinin əməkdaşı olan Şeron Treynorun sözlərinə görə, Menninq öz uzunömürlülüyünü şərab və cin içkisi ilə əlaqələndirir.**

"Biz Dorindən uzun ömür sürməyin sirrinin nə olduğunu soruşduq. O isə - "Səhər bir stəkan su, nahar hazırlayarkən bir stəkan şərab və cin", - cavabını verdi", - deyə Şeron Treynor bildirib.

## Limonu belə yemək daha faydalıdır

**Mütəxəssislər limonun bilinməyən təsirlərini açıqlayıblar. Araşdırmalara görə, dondurulmuş limon təzə limondan qat-qat sağlam ola bilər. Limonun orqanizm üçün son dərəcə faydalı məhsul olduğunu danmaq olmaz. Ancaq az adam bilir ki, dondurulmuş limon daha faydalıdır. Bir sıra araşdırmalar göstərib ki, limon və bəzi digər sitrus meyvələrində xərçəng əleyhinə xüsusiyyətlərə malik təbii maddələr var.**

Bunlara dəyişdirilmiş sitrus pektinləri və limonoidlər daxildir. Bununla belə, onların insanlara təsiri hələ də sınaqdan keçirilməyib. Modifikasiya edilmiş sitrus pektinləri sitrus meyvələrinin qabığında olan və bağırsaqlarda daha yaxşı sorulması üçün dəyişdirilmiş karbohidratdır. Təbii formada pektin həzm olunmayan pəhriz lifidir. Heyvanlar üzərində aparılan tədqiqatlar göstərir ki, bu pektin prostat, süd vəzi və dəri xərçənginin digər orqanlara yayılmasının qarşısını ala bilir, həmçinin ilkin şişə təsir etməsə də, xərçəng hüceyrələrinin inkişafına və yayılmasına maneə törədir.

Limonoidlər limonlara acı dad verən sitrus qabıqlarında olan kimyəvi maddələrdir. Tədqiqatlar göstərir ki, yüksək konsentrasiyalarda onlar xərçəng hüceyrələrinin böyüməsini ləngidə və apoptoza (hüceyrə ölümü) səbəb ola bilər.

## Autizmin oğlanlarda niyə daha çox yayıldığı bilindi




**ABŞ, Danimarka və İsveçdən olan beynəlxalq alimlər qrupu, autizm spektri pozğunluqlarının qızlarla müqayisədə oğlanlarda daha çox rast gəlinməsinin səbəblərini araşdırıb.**

Tədqiqat "JAMA Psychiatry" elmi jurnalında dərc edilib. Autizm spektri pozğunluqlar sosial ünsiyyətdəki problemlər, təkrarlanan davranışlar və bir sıra digər idrak və duyğu pozğunluqları ilə xarakterizə olunan mürəkkəb neyro inkişaf vəziyyətidir. Autizmli bəzi insanlar musiqi, sənət və ya riyaziyyat kimi sahələrdə müstəsna qabiliyyətlərə sahib ola, bəziləri isə gündəlik həyatda əhəmiyyətli çətinliklərlə qarşılaşa bilər. Autizmin dəqiq səbəbləri bilinmir.

Alimlər İsveçdə 1985-1998-ci il təvəllüdlü milyondan çox uşağı əhatə edən geniş əhali reyestrinin məlumatlarını təhlil ediblər. Nəticələr autizmin oğlanlarda təxminən 87 %, qızlarda isə təxminən 76% olduğunu göstərib. Cinslər arasındakı bu 11 % fərq statistik cəhətdən əhəmiyyətli hesab olunur və genetik faktorların oğlanlarda autizmin inkişafında qızlarla müqayisədə daha əhəmiyyətli rol oynadığını göstərir.

Tədqiqatçılar güman edirlər ki, bu nəticələr iki cins arasındakı pozğunluğun müxtəlif əsas səbəblərini göstərə bilər, oğlanlar genetik risk faktorlarına qarşı daha həssas ola bilər. Müəlliflərin sözlərinə görə, oğlanların autizm spektri pozğunluqları fərdi nukleotid variantları kimi əlavə genetik faktorlardan qaynaqlanır.

Alimlər qeyd ediblər ki, oğlan və qızlarda autizmin baş verməsinin müxtəlif genetik yolları bu pozğunluqların diaqnozu və müalicəsi üçün nəticələrə səbəb ola bilər.

## Türkiyədə iti vurmamaq üçün ani manevr edən sürücü iki nəfərin ölümünə səbəb oldu

**Türkiyənin Aydın şəhərinin Köşk rayonunda yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb. İlkin məlumata görə, hadisəyə səbəb sürücünün yoldakı iti vurmamaq üçün ani manevr etməsi olub. Əvvəlcə ağaca çırpılan avtomobil daha sonra kanala aşıb.**

Hadisə yerinə gələn tibb işçiləri bir sərnişinin yerindəcə keçindiyini müəyyən ediblər. Yaralı sürücü isə təcili yardım avtomobili ilə Aydın Adnan Menderes adına Universitet Xəstəxanasına aparılıb. Həkimlərin müdaxiləsinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.